26_27 IYUl-QARA.qxd 8/1/2024 9:40 PM Page 1

UNİKAL

№27 (2209) 2 avqust 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Region "qan gölü"nə çevrilə bilər



Səh. 9



## Məzahir Pənahov seçki hazırlığı ilə bağlı son durumu açıqladı

*Növbədənkənar parlament seçkilərində 481 nəfərin namizədliyi qeydə alınıb.*

*"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK sədri Məzahir Pənahov deyib.*

*O qeyd edib ki, ümumilikdə, 1489 nəfər namizədlik üçün müraciət edib.*

*"459 nəfər 25 siyasi partiyadan irəli sürülüb. 1029 nəfər fərdi müraciət edib. Bitərəf namizədlər 958 nəfərdir, 531 nəfərin partiya mənsubiyyəti var. 802 nəfər imza vərəqələrini təhvil verib", - o deyib.*

Səh. 2

## "Türkiyə daim Azərbaycanın yanında olub"



*VI çağırış Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Türkiyə-Ermənistan normallaşma prosesi üzrə xüsusi nümayəndələrinin 5-ci görüşündən, Ermənistan-Türkiyə sərhədlərinin hansı halda açıla biləcəyindən və Ermənistanın son vaxtlar sülh danışıqlarını uzadaraq...*

Səh. 4

## COP29-la əlaqədar bu tələbələr distant təhsil alacaq



*Nazirlər Kabineti "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə...*

Səh. 5

## "Şərurlu İsfəndiyar"ın külli miqdarda cərimə şoku



*"Şərur" Mənzil-Tikinti Kooperativi (MTK) barəsində Ətraf Mühitin Mühafizəsi, Təbiətdən İstifadə və Ekoloji Təhlükəsizlik qaydaları əleyhinə olan (Ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının, habelə zərərli fiziki təsirlərin hədlərinin yol verilə bilən normativlərdən artıq olması)...*

Səh.7

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:42 PM Page 2



# "Bəzilərinin sənin qədər kişiliyi yoxdur" - Cavidan Novruz



***Tanınmış teleaparıcı Mətanət Əliverdiyeva mərhum Xalq artisti Ramiz Novruzun oğlu Cavidan Novruz barədə açıqlaması ilə gündəmə gəlib.***

"Unikal" yenisabah.az-a istinadən xəbər verir o, aparıcısı olduğu "Xəzər axşamı" verilişində C.Novruzun uğurlarından bəhs edərək onu təbrik edib: "Səhər gələndə Xəzər telekanalının həyətində Cavidan Novruzla qarşılaşdıq. Cavidan hazırda Rusiyada bir filmə çəkilir. Film həqiqətən ağırdır və Cavidan orada Ömər obrazını canlandırır. O, rusiyalı rejissorları öz işi ilə heyran etməyi bacarıb. Cavidan təkcə atasının adına görə deyil, həm də istedadına görə sevilir. Hər şey insanın öz əlindədir".

C.Novruz da öz növbəsində sözügedən kadrları sosial şəbəkə hesabında paylaşaraq aparıcıya təşəkkür edib: "Deyirəm, görəsən, niyə bu sferada bəzilərinin sənin qədər kişiliyi mərdliyi yoxdur? Mən səni dünən, bu gün tanımamışam. Hər şey üçün, bu addımın üçün, bu jestin üçün var ol! Bu sənətdə hər kəs sənin kimi olsaydı, inan Allaha ki, hər şey tam başqa olardı. Öpürəm dostum! O "mış-mış" paylaşımlara baxıb hər hansısa uğurları görüb gizlin keçənlər, bax, belə olmaq lazımdır! Mənə qarşı yox, ümumiyyətlə, sənət yoldaşlarının uğurlarına ən azından belə olmaq lazım idi!".

# Faiq Ağayev Zülfiyyə Xanbabayeva ilə barışmasından danışdı



***Xalq artisti Faiq Ağayev Xalq artisti Zülfiyyə Xanbabayeva ilə barışdıqdan sonra ilk dəfə görüntülənməsindən danışıb.***

"Unikal" olay-a istinadən bildirir ki, bununla bağlı sənətçi "DreamFest"də jurnalistlərin suallarını cavablandırarkən söz açıb.

Ağayev deyib ki, həmkarı ilə aralarında olan məsələni bir ildir həll ediblər: "Biz məsələni bir ildir həll etmişik. Mən Zülfiyyənin oxumağını 1988-dən sevirəm, o, mənim oxumağımı 1988-dən sevir. Yəqin ki, bu, müvəqqəti fasilə idi. Ki biz bir-birimizə daha bərk sarılaq və məhəbbətimizi bildirək".

Qeyd edək ki, F. Ağayev öz çıxışından bir gün öncə "DreamFest"də olmuş və Xanbabayeva ilə bir araya gəlmişdi.



# "Nə maşın sürürdüm gedib alırdı..." - Namiq Qaraçuxurlu

***Müğənni-meyxanaçı-müğənni Namiq Qaraçuxurlu açıqlaması marağa səbəb olub.***

Sənətçi "Zaurla günaydın" verilişində onunla eyni efirdə qonaq olan aktyor Elməddin Cəfərovun "paxırını" açıb.

Belə ki, meyxanaçı Cəfərovun onunla maşın rəqabətinə girdiyini bildirib. Nə avtomobil sürsə, Elməddinin eynisini aldığını deyən Namiqin söylədikləri gülüş doğurub.

Qaraçuxurlu son aldığı maşının çox bahalı olmasına eyham vuraraq, aktyorun ona "çata bilmədiyini" deyib.

# Mətanət tənqid olunan videosu haqda: "Burada biabırçı nə var?"

***Müğənni Mətanət Əsədova həmkarı, Əməkdar artist Elton Hüseynəliyevlə reqs edərkən çəkilən görüntüsünə tənqid yazan şəxsə cavab verib.***



Axşam.az xəbər verir ki, həmin videonu səhifəsində paylaşan sənətçi bunları yazıb: "Baxın yuxarıda yazılana. Burada sadəcə iki sənətkar rəqs edir. Başa düşmədim, burada nə biabırçı nə var? Bunu yazan, hələ yorulmadın sən? Bəsdir, özünə gəl. Səni qınamıram, çox böyük bir bataqlıqdasan. Ölürsən, amma düzəlmirsən. Çünki qozbeli qəbir düzəldər. Qorxuram ki, orada da düzəlmiyəsən".

# "Həyat yoldaşımla heç yerə getmirəm" - Yusif Mustafa

***Əməkdar artist Yusif Mustafayev həyat yoldaşı ilə heç yerə getmir.***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu barədə sənətçi "Xəzər axşamı" verilişində danışıb.

O, təklikdə qalmağı daha çox sevdiyini etiraf edib: "Mən həyatda təkliyi sevirəm. Xanımımla heç yerə getmirəm. Övladları ilə gedir. Amma tanınmağın çətinlikləri var. Ailəvi harasa getmək alınmır. Qorxduğum şey abırım, ismətimdir. Ona görə mənə çətin gəlir. Məşhur olmamışdan əvvəl dükana gedərdik. Tanındıqdan sonra ailəvi dükana, bazara da getmirəm. Mən həssas insanam, ehtiyat edirəm".

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:44 PM Page 3






## BŞTİ-yə iyul ayı ərzində 17 min 302 müraciət daxil olub

***İyul ayı ərzində Bakı Şəhəri üzrə Təhsil İdarəsinə (BŞTİ) 17 min 302 müraciət daxil olub.***

İdarədən "Unikal"a bildirilib ki, daxil olan müraciətlərin əksəriyyəti cavablandırılıb və operativ şəkildə həll olunub.

Statistikaya əsasən, Çağrı Mərkəzinə (146-1 nömrəli) 9105 zəng daxil olub. Vətəndaşların Qəbulu Mərkəzinə 4747 müraciət daxil olub.

BŞTİ-yə 2983 sənəd (vətəndaşlar tərəfindən 381 ərizə, Elm və Təhsil Nazirliyindən 439, digər qurumlardan 343, tabelikdə olan təhsil müəssisələrindən 679 məktub və 1141 kadr ərizəsi) daxil olub və qeydiyyata alınıb. Həmçinin 467 elektron müraciətə baxılıb.

Daxil olan müraciətlər müxtəlif məsələlərin tənzimlənmə qaydalarının öyrənilməsi, məktəbəqədər təhsil müəssisələrinə və I sinfə qəbul, müəllimlərin əmək müqaviləsinin müddətinin uzadılması, işə qəbul və digər məsələləri əhatə edir.

## Qadın prokuror rəis müavini təyin edildi

***Baş Prokurorluqda yeni təyinat olub.***



"Unikal" Baş Prokurorluğun Mətbuat xidmətinə istinadən xəbər verir ki, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən, Selcan Familzadə Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini vəzifəsinə təyin edilib.

Qeyd edək ki, Selcan Familzadə 2016-cı ildə müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa qəbul olunub. O, əvvəllər Ağsu rayon prokurorunun köməkçisi və Baş Prokurorluğun İstintaq idarəsinin böyük prokuroru vəzifələrində işləyib.

# Rafiq Əliyevin ağır ittihamlar qarşısında müəmmalı susqunluğu

## Sabiqlərin izi ilə: keçmiş komitə sədri xələfinin sərt suçlamalarını niyə cavabsız qoydu?

***”Unikal” qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) keçmiş sədri Rafiq Əliyev haqqındadır.***

Xatırladaq ki, hazırda 77 yaşı olan R.Əliyev 2001-2006-cı illərdə adı çəkilən komitəyə rəhbərlik edib. ”İRŞAD” İslam Araşdırmaları Mərkəzinin direktoru, fəlsəfə elmləri doktoru olan Rafiq müəllimin komitə sədrliyi sonradan bir çox mübahisələrin və ittihamların hədəfinə çevrilib.

Öncə onu deyək ki, DQİDK-nin sabiq sədri Bakıdakı məşhur "İrşad" otelinin sahibidir. Şəhərin mərkəzindəki bu xudmani mehmanxana xüsusilə ərəb ölkələrindən gəlmiş turistlərin sevimli məkanıdır.

Bir neçə il öncə isə R.Əliyevin adı 1,6 milyon manatlıq qalmaqalda hallanmışdı.Həmin vaxt Dubayda yaşayan iş adamı İsa Məhəmməd Salihin oğlu Azərbaycan mətbuatına danışmışdı. Məlum olmuşdu ki, İsa da ilahiyyatçı alimdir və 1996-cı ildə namizədlik dissertasiyasını müdafiə edib. Elmi rəhbəri isə Rafiq Əliyev olub. Elə həmin vaxt tərəflər Bakı İslam Universitetinin tələbələri üçün yataqxana tikintisi barədə razılığa gəliblər. Yeni layihədə paylar haqqında danışılıb və bu işdən gəlir götürmək də nəzərdə tutulub. Tərəflərin öhdəlikləri 14 iyun 1997-ci ildə imzalanmış müqavilədə öz əksini tapıb. İşin bitdiyini hesab edən İsa vətəninə yollanıb və əmin olub ki, POWELLINDASTRIES Gmbh şirkətinin timsalında Azərbaycan tərəfi obyekti müqaviləyə uyğun tikib istifadəyə verəcək. Ərəb tərəfi yalnız vaxtlıvaxtında maliyyə dəstəyi göstərməli idi. Şirkətə rəsmi olaraq Rafiq Əliyevin qızı başçılıq etsə də, bütün məsələləri Dövlət Komitəsinin keçmiş sədri özü həll edib. Lakin sonradan 1,6 milyon dollarlıq obyektin yerində yataqxana əvəzinə otelin tikildiyi aydınlaşıb. ”Düzdür, iki il ərzində ərəb iş adamı mütəmadi olaraq gəlirdən öz payını alıb. Bu müddət ərzində onun hesabına 190 min dollar köçürülüb. Lakin 2002-ci ildən bu ödənişlər dayanıb, o vaxtdan Əliyevin telefonu da dubaylı iş adamının üzünə bağlanıb. İsa Məhəmməd Salih Bakıya gələrək məsələləri burada həll etmək istəyib, lakin onu başa salıblar ki, bu cür yüksək vəzifəli adamla münaqişəyə girməyə dəyməz” deyə onun oğlu bildirmişdi.

Bu qalmaqalın nə ilə sonuclandığına dair hər hansı məlumat yoxdur.

Sabiq komitə sədrinin adı 2018-ci ildə də pul qalmaqalında hallanıb və hətta bu qalmaqal məhkəmə çəkişməsinə çevrilib. Belə ki, həmin vaxt R.Əliyevlə Prezident Administrasiyasının nəzdində fəaliyyət göstərən zərgərlik sexinin müdiri vəzifəsini müvəqqəti icra edən Tariyel Ağayev adlı şəxs arasında külli miqdarda pul mübahisəsi yarandığı açıqlanıb. "BakuPost" xəbər verib ki, T.Ağayev R.Əliyevi ona olan külli miqdarda borcunu qaytarmaması iddiası ilə məhkəməyə verib. İddia olunub ki, T. Ağayev Rafiq Əliyevə ümumilikdə 1 346 000 manat borc pul verib, R. Əliyev isə ona olan borcunun bir hissəsini qaytarıb, lakin qalan 816 386 ABŞ dollar borcunu qaytarmaqdan imtina edib.

R.Əliyev bu yaxınlarda yenidən mətbuatın gündəminə düşüb. Səbəb isə onun xələfi, 2006-2012-ci illərdə DQİDK-yə rəhbərlik etmiş Hidayət Orucovun ünvanına sərt ittihamları idi. Sitat: "Dini bilən adam Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə sədr olmalıdır. Bu vəzifədə birinci 5 il mən işlədim. Mən dini də, ərəb dilini də bilirdim. Təxminən 5 il ərzində dövlət konsepsiyası hazırladıq və müəyyən işlər gördük. Daha sonra həmin vəzifəyə Hidayət Orucov təyin olundu. O, nə dini, nə də siyasəti bilirdi. Hidayət Orucov 9 il bu vəzifədə işlədi, lakin bu müddət ərzində onun gördüyü hər hansı işi qeyd edə bilmirəm. Çünki ədəbiyyatşünas idi və ancaq yazı-pozu ilə məşğul olurdu".

Hidayət Orucovun ona cavabı özünü çox gözlətməyib. Orucov da sələfinin ünvanına kəskin ifadələr işlətmişdi. Sitat: ”Dövlət Komitəsinə sədr gedəndə təəccüblənmişdim... Getdim, orada Dövlət Komitəsinin fəaliyyəti, statusu, görəcəyi işlərlə bağlı heç nə görmədim. Bir daha təkrarlayıram, mən inanmazdım, həm də təsəvvür eləməzdim ki, Azərbaycanda elə antidövlət komitəsi var".



Orucov həmçinin bildirmişdi ki, o zaman Azərbaycanda situasiya çox mürəkkəb idi, çox ciddi problemlər var idi: "Yəni xarici missionerlərin ölkəmizə axını, onların təmsil olunduqları ölkələrdəki dövlət-din münasibətlərini burada təbliğ etmələri, İslam dəyərlərini özlərinə məxsus şəkildə yaymağa cəhd eləməsi, Azərbaycan üçün ənənəvi olmayan və Azərbaycan xalqının heç vaxt qəbul etmədiyi radikal təriqətlərin, mövhumatın burada yayılması və ilaxır. Bu məsələlərlə bağlı demək olar ki, heç bir iş görülmürdü... Hətta xarici missionerlərə şərait yaradanlar da istisna olunmurdu...".

Hidayət müəllim bu sözlərlə də kifayətlənməyib və əlavə edib: ”Lap dözülməzi o idi ki, bu, ümumiyyətlə, Dövlət Komitəsinin işi ilə məşğul olmurmuş. Mən orada fəaliyyətə başlayandan sonra əməkdaşlar dedilər ki, saat 11-12-də işə gəlirmiş, günorta 1-də, uzaqbaşı 2-də çıxıb gedirmiş və ondan sonra qayıtmırmış. Dövlət Komitəsini idarə edən maliyyə şöbəsinin müdiri onun yeznəsi imiş. Onun siyasətlə, dinlə heç bir əlaqəsi olmayıb, ticarətdə - "Azərittifaq"ın Ağdamdakı qurumunda işləyib. Əvvəla, yaxın qohumu ora işə götürmək olmaz, bu, öz yerində. Digər tərəfdən, "Azərittifaq"ın keçmiş işçisi siyasi bir qurumda, Dövlət Komitəsində, günün yarısından çoxunu sədrin yerinə necə işləyə bilər? O vaxt məlum oldu ki, bu adam 5 il komitə sədri işlədiyi dövrdə onun əsas diqqəti özünün biznes maraqlarına yönəlib. Məsələn, "İrşad" hoteli tikdi, telefon şirkəti yaratdı və ilaxır".

Lakin maraqlıdır ki, H.Orucov R.Əliyevin ittihamlarını cavabsız qoymadığı halda sonuncu öz xələfinin kifayət qədər sərt suçlamalarına nədənsə münasibət bildirmədi. Onun bu müəmmalı susqunluğu təəccüb doğurmaya bilməz.

Onu da deyək ki, R.Əliyev vəzifədə olarkən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rəsi Hacı Allahşükür Paşazadə ilə də aralarında soyuq münasibət hökm sürürb. Tərəflər müxtəlif məsələlər üzərindən (misal üçün, 2008-ci ildə ”Əbu Bəkr” məscidi ilə bağlı) bir-birlərinin ünvanına üstüörtülü, dolayı ittihamlar da səsləndiriblər. Bu soyuqluq çox sonralar da özünü göstərib. Hətta iş o yerə çatıb ki, sabiq komitə sədri ötən il Paşazadənin professor elmi dərəcəsi almasının tarixçəsindən danışarkən bunda həlledici rol oynadığına diqqət çəkib, sonra da sensasion ifadələr işlədib: ”O vaxt Fərəməz Maqsudov Akademiyanın prezidenti idi... Həmin vaxt Şeyxin professor dərəcəsi alması üçün Ali Attestasiya Komitəsinə göndərilməli olan sənədinə qol çəkmirdilər. Mən bu barədə Fərəməz Maqsudova dedim... Fərəməz müəllim xahişimi yerə salmadı və dəstəyi götürüb Cəmil Quliyevə zəng etdi. Dedi ki, tapşır şeyxülislamın sənədinə qol çəksinlər, eybi yox, bir savadsız professorumuzun da sayı artsın...."

Hazırda təqaüddə olan R.Əliyevin və rəhbəri olduğu araşdırmalar mərkəzinin fəaliyyəti ilə bağlı hər hansı bilgi yoxdur. Xüsusilə mərkəzin son illərdə sadəcə adının qaldığı deyilir. Elə alimin özü də son illərdə hər hansı elmi iş ortaya qoymayıb. Bunun müqabilində onun biznes işlərinin hələ ki, qaydasında getdiyi deyilir.

***Toğrul Əliyev***

26_27 IYUI-QARA.qxd 8/1/2024 9:46 PM Page 4



# Region "qan gölü"nə çevrilə bilər

***Xəbər verildiyi kimi, iyulun 31-də səhər saatlarında HƏMAS rəhbərinin Tehrandakı iqamətgahının raket atəşinə tutulması nəticəsində HƏMAS-ın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə öldürülüb. O, İranın yeni prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirak etmək üçün Tehrana getmişdi.***

Bu sui-qəsdlə bağlı İran Ali Milli Təhlükəsizlik Şurası bildirib ki, Haniyənin öldürülməsinə səbəb olanlar öz cavablarını alacaqlar. Bundan başqa, İranın Prezidenti Məsud Pezeşkian İranın öz ərazi bütövlüyünü, şərəfini qoruyacağını və terrorçu işğalçıları qorxaq əməllərinə görə peşman edəcəyini vurğulayıb. İranın ali lideri ayətullah Əli Xamenei isə Haniyəni qətlə yetirməklə, İsrailin özü üçün ağır cəzaya zəmin yaratdığını açıqlayıb.



### Bəs görəsən, baş verən hadisə region üçün hansısa təhlükə vəd edirmi?

Politoloq Elxan Şahinoğlu bizimlə söhbətində deyib ki, İsrail HƏMAS liderini istənilən başqa ölkədə neytrallaşdıra bilərdi, ancaq bunun üçün məhz İranı seçdi. Onun fikrincə, İsrailin HƏMAS lideri İsmayıl Haniyəni Tehranda raket zərbəsi ilə öldürməsinin səbəbi islahatçı kimi dəyərləndirilən İranın yeni Prezidenti Məsud Pezeşkianla bağlıdır: "İsrail Qərbin İrana qarşı siyasətinin yumşaldılmasını istəmir. Məsud Pezeşkianın isə prezident kürsüsündə başlıca məqsədi Qərb ölkələri ilə münasibətlərin normallaşması, yeni nüvə anlaşmasının imzalanması olacaqdı. Bu İsrailin maraqlarına ziddir. Çünki Tel-Əviv düşünür ki, Tehran Qərblə münasibətlərin normallaşması adı altında həm nüvə çalışmalarını davam etdirəcək, həm də əvvəlki kimi HƏMAS və Hizbullah kimi təşkilatları İsrailə qarşı maliyyələşdirməkdə və silahlandırmaqda davam edəcək. HƏMAS liderinin Pezekişanın andiçmə mərasiminə qatıldığı gün Tehranda öldürülməsi İranın yeni Prezidentinin imicinə də mənfi təsir etdi. Pezeşkian HƏMAS liderinin Tehranda öldürülməsinə kəskin reaksiya vermək məcburiyyətindədir, o ali dini lider və SEPAH-ın İsrailə qarşı müxtəlif həmlələrinə dəstək vermək məcburiyyətində qalacaq. Belə olan halda Məsud Pezeşkianın Qərb ölkələri ilə münasibətlərin normallaşdırılması istəyi arxa plana keçəcək. İsrailə də elə bu lazımdır".

Siyasi şərhçi Asif Nərimanlı hesab edir ki, İsmayıl Haniyənin öldürülməsi Həmasın siyasi qanadının sıradan çıxarılması mərhələsinin başlanması deməkdir. Onun sözlərinə görə, əsas hədəfi Həması yox etmək olan İsrail Qəzzada tamamilə buna nail ola bilməz: "Qruplaşmanın hərbi qanadı üzərində uğur qazansa belə, Həmas məsələsini bitirmək üçün onun siyasi rəhbərliyi də aradan qaldırılmalıdır. Haniyənin ölümünə qədər bu çətin görünürdü. Çünki Qəzzadan kənarda olan Həmasın siyasi rəhbərliyi Qətərdə mənzillənmişdi və kifayət qədər yaxşı qorunurdu. Haniyə Qətəri tərk etdikdən sonra - Tehranda öldürüldü və bu amil birdən çox açıq sual yaradır:

- Haniyənin İranda təhlükəsizliyi təmin edilməyibmi?
- Onu İran daxilində satanlar ola bilərdimi?
- Həmas lideri niyə İran prezidentinin inaqurasiya mərasimində hədəf seçildi?

Haniyənin Pezeşkianın inaqurasiyası zamanı öldürülməsinin İran-Qərb təmaslarını baltalamaq məqsədi daşıdığı versiyası real görünür, xüsusilə Tehranın nüvə danışıqlarına başlamaq istəyi fonunda. Və bu, İsrailin marağındadır. Hərçənd, Haniyənin Qətərdə yox, məhz İranda açıq hədəf olmasının da burada rol oynadığı istisna edilməməlidir. Bunun iki mümkün səbəbi ola bilər. Birincisi, İsrailin İranda daha geniş casus şəbəkəsi mövcuddur: indiyə qədər həyata keçirdikləri əməliyyatlar da bunu deməyə əsas verir. İkincisi, Haniyəni İsrailə İranın özü, yaxud rejim daxilindəki qüvvələr qurban verib".

A.Nərimanlı hesab edir ki, ikinci versiya birinci ilə müqayisədə daha zəifdir. "Həmas liderinin İranda, məhz prezidentin inaqurasiya mərasimində iştirak məqsədilə səfəri zamanı öldürülməsi bu ölkənin təhlükəsizlik imicini alt-üst edir, həm də Pezeşkianı daha sərt siyasi xətt izləməyə məcbur edəcək. Bu baxımdan, Haniyənin ölümündə İranın əlinin olmadığı fikri ön plana çıxa bilər. Lakin bu, şübhələri aradan qaldırmır. Pezeşkianın Qərblə normallaşma siyasətinə təkcə İsrail yox, İran daxilindəki qüvvələr də "isti yanaşmır": Haniyəni qurban verənlərin daxili qüvvələr olması da istisna edilməməlidir. Qəzza müharibəsinin başlanmasına zəmin yaradan Həmasın "7 oktyabr" hücumunun İran tərəfindən təşviq edildiyi ehtimalları kifayət qədərdir (bu haqda daha öncə yazmışıq): bu hücum İsrailə Qəzzanı bombalamağa - Həmasın hərbi qanadını məhv etməyə imkan yaratdı; "indi siyasi qanadın sıradan çıxarılmasında İran İsrailə yenidən "pas ötürür?", - sualı önə çıxır".

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, sözügedən sui-qəsd Qəzza zolağında gedən müharibənin bir hissəsi olan hadisədir: "İsrail rəhbərliyi açıq şəkildə bəyan edib ki, HƏMAS təşkilatının tamamilə ləğv edilməsini öz qarşısına məqsəd kimi qoyub. Eyni zamanda İsrail girov düşmüş insanların axtarışı ilə məşğuldur. Müharibə əməliyyatlarının davam etməsinə baxmayaraq, təxminən 24-25 nəfər girov hələ də axtarılır. Bir çox mənbələrə görə, vaxtilə HƏMAS təşkilatının bu və ya digər qanadlarının İsrail ilə əlaqələri mövcud olub. Qəzza zolağında işıq və su təminatı, o cümlədən bəzi layihələr İsrailin dəstəyi ilə həyata keçirilib".

HƏMAS-ın siyasi rəhbərliyinin qərargahının Qətərdə yerləşdiyini bildirən T.Zülfüqarovun sözlərinə görə, ABŞ-nin ən böyük bazaları və komandanlığı da Qətərdədir. Bu isə vəziyyətin kifayət qədər mürəkkəb olduğunu göstərir. "Haniyənin öldürülməsi İran və İsrail arasındakı gərginliyi yeni səviyyəyə çıxara bilər. Çünki bu hadisə ilə yanaşı, İran müxtəlif səviyyələrdə nüvə proqramına aid danışıqları bərpa etməyə hazır olduğunu açıqlamışdı. Ümumilikdə indiki məqamda məlumatın az olması gedişatı ətraflı izah etməyə imkan vermir. Sadəcə ilkin təhlilə görə, İran-İsrail qarşıdurması daha da güclənəcək", - deyə sabiq xarici işlər naziri vurğulayıb.

***M.İbrahimli***



# Baş nazirdən sosial ödənişlərlə bağlı qərar

***Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası təsdiqlənib.***

"Unikal"ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib.

Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün (20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsinə münasibətdə bu Qaydaya uyğun olaraq), Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün və 3 yaşınadək uşağa qulluğa görə müavinətin təyin olunması üçün müraciətin edilməsi, onların təyin olunması və ödənilməsi bu Qaydanın müddəaları nəzərə alınmaqla müvafiq olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 yanvar tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları"na, 2014-cü il 30 oktyabr tarixli 360 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi Qaydası"na, 2019-cu il 9 iyul tarixli 294 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün ödənilməsi Qaydası"na və1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçirilir.

Sosial ödənişlər müraciət olunmadan proaktiv qaydada və ya onu almaq hüququ olan şəxslərin və yaxud onların qanuni nümayəndələrinin Fond tərəfindən təyin edilir. Bu Qaydada nəzərdə tutulan sosial ödənişlərin təyin edilməsi, ödənilməsi və ödənişinin dayandırılması ilə bağlı sənədlərin (məlumatların) və onların surətinin elektron variantının Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) səlahiyyətli vəzifəli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Sosial ödənişlər" altsisteminə daxil edilir və ya bildirişlər (bu Qaydanın 5.8-ci bəndi nəzərə alınmaqla) həmin altsistem vasitəsilə göndərilir.

# Prezident Azərbaycan kino işçilərini təltif etdi - Siyahı



***Prezident İlham Əliyev Azərbaycan kino işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamla Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif ediliblər:

Cilqamlı Rəmziyə Əkrəmovna
Quliyeva Gülşən Rəsul qızı
Məmmədov Rövşən İsax oğlu
Nəcəfov Bayram Hidayət oğlu
Yunusov Ədalət Məmməd oğlu.

Bundan əlavə, Azərbaycan kinematoqrafiyasının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib:

Qurbanova Firəngiz Ağa Dadaş qızı
Rüstəmov Akif Zabi oğlu.

# Palata Naxçıvanın Sosial Xidmətlər Agentliyində nöqsanlar aşkarladı



***Bu gün Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərliyi ilə Kollegiya iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda ilk olaraq "Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən dövlət vəsaitinin və dövlət əmlakının istifadəsinin auditinin nəticələrinə dair Auditor hesabatı" müzakirə edilib.

Müzakirələrin nəticəsinə əsasən auditor hesabatının təsdiq olunmasına, aşkar edilmiş nöqsanların qurum tərəfindən aradan qaldırılması məqsədilə zəruri işlərin görülməsinə dair qərar qəbul olunub.

Daha sonra "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyindəki qurumlar tərəfindən dövlət vəsaitinin və balansında olan dövlət əmlakının idarə edilməsinin hüquqi aktlara uyğunluğunun auditi"nin keçirilməsi müddətinin artırılması qərara alınıb, habelə "Azərbaycan Milli Elmlər Akademiyasının İşlər İdarəsi tərəfindən dövlət vəsaitlərinin və digər dövlət əmlakının idarə olunmasının auditi"nə dair kənar dövlət maliyyə nəzarəti tədbirinin proqramı təsdiq edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

## Rəqabət Məcəlləsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü qaydası təsdiqləndi

***Nazirlər Kabineti "Rəqabət Məcəlləsinin 9.2-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə Qaydası"nı təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərar iyulun 1-dən tətbiq edilir.

Qərara əsasən, sözügedən Qayda Rəqabət Məcəlləsinin 9.3-cü maddəsinin icrası məqsədilə hazırlanıb və həmin Məcəllənin 9.2-ci maddəsinə uyğun olaraq Məcəllənin tələblərinin pozulmasına görə Məcəlləyə və İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən maliyyə sanksiyaları və cərimələrdən daxil olan vəsaitin bölgüsü və istifadə qaydasını müəyyən edir.

Büdcədənkənar vəsait ölkənin mülkiyyəti hesab olunur, İqtisadiyyat Nazirliyinin sərəncamındadır və onun istifadəçisi (sərəncamçısı) dəyişdirilə bilməz.

# Baş nazirdən qərar: Bu qaydalar təsdiqləndi

***Nazirlər Kabineti "Vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi Qaydaları"nı təsdiq edib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, Qaydalar Vergi Məcəlləsinə əsasən hazırlanıb və təsərrüfat əməliyyatları aparılan zaman vergi ödəyicisi tərəfindən malları (işləri, xidmətləri) ona təqdim edən digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi qaydasını, təqdim edilən məlumatların dairəsi və hədlərini, habelə məlumatların təqdim edilməsi üzrə verilən sorğuların uçotunun aparılması qaydasını müəyyən edir.

Qaydalarda istifadə olunan anlayışlar Vergi Məcəlləsində və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

Məlumatlar dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və büdcə təşkilatları istisna olmaqla yalnız sorğulanan və vergi ödəyicisi kimi uçota alınmış şəxslər üzrə təqdim edilir.

# Şuşada Azərbaycan-BƏƏ Hökumətlərarası Komissiyasının 9-cu iclası keçirilib

***Şuşada Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 9-cu iclası keçirilib.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"BƏƏ-nin iqtisadiyyat naziri, həmkarım Abdulla Bin Touq Al Marri ilə birlikdə Şuşada Azərbaycan-BƏƏ Hökumətlərarası Komissiyasının 9-cu iclasında iştirak etdik. Ölkələrimizin dayanıqlı inkişafı istiqamətində iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, investisiya yatırımlarının artırılması, "yaşıl enerji"yə keçidin təmin edilməsi sahəsində birgə təşəbbüslərin əhəmiyyətini qeyd etdik və COP29 çərçivəsində potensial əməkdaşlıq imkanlarını nəzərdən keçirdik. Azərbaycan-BƏƏ iqtisadi tərəfdaşlığının güclənməsi üçün yeni fürsətlər yaradan və səmərəli



müzakirələrlə yadda qalan iclasın bütün iştirakçılarına təşəkkür edirəm", - deyə o qeyd edib.

# Məzahir Pənahov seçki hazırlığı ilə bağlı son durumu açıqladı

***Növbədənkənar parlament seçkilərində 481 nəfərin namizədliyi qeydə alınıb.***



"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında MSK sədri Məzahir Pənahov deyib.

O qeyd edib ki, ümumilikdə, 1489 nəfər namizədlik üçün müraciət edib.

"459 nəfər 25 siyasi partiyadan irəli sürülüb. 1029 nəfər fərdi müraciət edib. Bitərəf namizədlər 958 nəfərdir, 531 nəfərin partiya mənsubiyyəti var. 802 nəfər imza vərəqələrini təhvil verib", - o deyib.

# Rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi keçiriləcək

***4 avqust 2024-cü il tarixində Bakı və Naxçıvan şəhərlərində rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi keçiriləcək.***

"Unikal" Dövlət İmtahan Mərkəzinə istinadən xəbər verir ki, imtahan Bakı şəhərində 4, Naxçıvan şəhərində 1 binada təşkil olunacaq və saat 10:00-da başlanacaq. İmtahan 2 saat 30 dəqiqə davam edəcək.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Namizədlər "İmtahana buraxılış vərəqəsi" https://eservices.dim.gov.az/brxv keçidinə daxil olaraq çap edə bilərlər.

Namizəd imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq gətirməlidir. Göstərilən sənədlərdən hər hansı biri olmazsa və ya sənədlər arasında uyğunsuzluq olarsa, namizəd imtahana buraxılmayacaq. Kütləviliyin qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Məlumat üçün bildiririk ki, imtahanın II mərhələsində iştirak etmək üçün 894 namizəd qeydiyyatdan keçib. Onlardan 335 nəfəri oğlan, 559 nəfəri qızdır. 712 namizəd Azərbaycan bölməsinin, 182 namizəd rus bölməsinin, 318 namizəd cari ilin, 576 namizəd isə əvvəlki illərin məzunudur. 5 nəfər xarici ölkə vətəndaşıdır. Bakı şəhərində 864, Naxçıvan şəhərində isə 30 namizədin imtahan verəcəyi gözlənilir.

İmtahanın idarə olunması üçün 5 ümumi imtahan rəhbəri, 59 imtahan rəhbəri, 76 zal nəzarətçisi, 12 buraxılış rejimi (mühafizə) əməkdaşı ayrılıb.

Qeyd edilib ki, bu mərhələdə iştirak edəcək 894 nəfərdən 655 nəfəri ötən illərdəki imtahan nəticəsinə görə, 239 nəfər isə builki imtahanlarda məqbul qiymət aldığı üçün ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılıb.

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:46 PM Page 6



# DTX və DSX əməliyyat keçirdi - Saxlanılanlar var

***Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidmətinin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasının vətəndaşları tərəfindən Azərbaycan ərazisinə qaçaqmalçılıq yolu ilə keçirilmiş külli miqdarda narkotik vasitə aşkar edilərək götürülmüşdür.***



"Unikal" xəbər verir ki, görülmüş təxirəsalınmaz tədbirlərlə qeyd olunan xarici ölkənin vətəndaşlarının Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yol kənarındakı yaşıllıq ərazidə gizlətdikləri və ümumilikdə 74 kq 163 qr çəkisi olan qurudulmuş marixuananı həmin ərazidən götürüb oradan uzaqlaşarkən Azərbaycan Respublikasının vətəndaşları - 1982-ci il təvəllüdlü Qasımov Vəli Mahir oğlu, 1988-ci il təvəllüdlü İsgəndərov İsgəndər Cəfər oğlu, 1993-cü il təvəllüdlü Süleymanzadə Aqşin Yusifəli oğlu və vətəndaşlığı olmayan 1982-ci il təvəllüdlü Daşdəmirov Çingiz Fakralı oğlu cinayət başında yaxalanmışlar.

Fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı), 234.4.1 və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələrin qaçaqmalçılığı) maddələri ilə cinayət işi başlanılmış və adıçəkilən şəxslər cinayət məsuliyyətinə cəlb edilmişlər.

Hazırda araşdırmalar davam etdirilir.

# Dövlət Komitəsində tədbir keçirildi

***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününə həsr olunmuş tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva, mərkəzin mütəxəssisi, Real FM-in baş aparıcısı Kəmalə Mustafayeva, dövlət komitəsinin rəhbərliyi və əməkdaşları iştirak edib.

Açılış nitqi ilə çıxış edən Dövlət Komitəsinin Aparat rəhbərinin müavini Vüqar Nəsirov bildirib ki, dövlət dilinin saflığının qorunması, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin tərkib hissəsi olub. Bu istiqamətdə qanunvericilik bazası formalaşdırılıb, Dövlət Proqramı qəbul edilib. Həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının dövlət dilinin qorunması və inkişafına imkan yaradıb. Qeyd edilib ki, hər bir vətəndaş dövlət dilindən düzgün istifadə ilə bağlı tələblərə əməl etməlidir. Bu günkü tədbirin Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi ilə keçirilməsinin də məqsədi dildən düzgün istifadə qaydalarını, normalara əməl edilməsi, dilimizə yeni daxil olmuş sözlərin istifadə formaları ilə bağlı dövlət qulluqçularını maarifləndirməkdir.

Daha sonra Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva çıxış edərək vurğulayıb ki, Azərbaycan dili aid olduğu türk dili qrupunda digər dillərdən öz zənginliyi ilə seçilir. Prezident İlham Əliyevin gənc nəslin ana dilində ödənişsiz təhsil almaları, bu dildə səlis danışmaları və ölkə hüdudlarından kənarda da dövlət dilindən sərbəst istifadə edə bilmələri üçün misilsiz xidmətlər göstərdiyi onun tərəfindən diqqətə çatdırılıb. Qeyd olunub ki, Ali Baş komandanın nitqi Vətən müharibəsində qələbənin, zəfərin dili oldu.

Eyni zamanda bildirilib ki, mərkəz tərəfindən monitorinqlər davam etdirilir, media subyektlərində dildən doğru və düzgün istifadə edilməsi, aparıcıların nitqinin səlis olması, ana dilindən düzgün istifadə qaydaları istiqamətində mütəmadi işlər aparılır, hesabatlar hazırlanır.



Mərkəzin mütəxəssisi, Real FM-in baş aparıcısı Kəmalə Mustafayeva dövlət qurumlarının nümayəndələrinin müsahibə və verilişlərdə çıxışları zamanı dövlət dilinin normalarına əməl edilməsi, nitqini düzgün qurulması ilə bağlı tövsiyələr verib.

Tədbir komitə əməkdaşları və Monitorinq Mərkəzinin mütəxəssislərinin müzakirələri ilə davam edib. Birgə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, tədbir 1 avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə əlaqədar keçirilib.

# Əmlak Məsələləri Dövlət Xidməti ötən ili 1,4 mln. manat zərərlə başa vurub

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti 2023-cü ili 1 369 392 manat zərərlə başa vurub.***

Bu barədə "Unikal"a Dövlət Xidmətindən bildirilib. Ötən il qurumun gəlirləri 86 164 182 manat, xərcləri 87 533 574 manat təşkil edib. Hesabat dövründə Dövlət Xidmətinin qeyri-birja əməliyyatından gəlirləri 73 839 843 manat, birja əməliyyatından gəlirləri 12 162 310 manat, sair əməliyyat gəlirləri 162 029 manat olub.

Eyni zamanda əmək haqqı xərcləri və dövlət sosial sığorta ayırmaları 22 799 049 manat, sərf edilmiş materialların dəyəri 2 406 532 manat, amortizasiya xərcləri 2 054 049 manat, sair əməliyyat xərcləri 60 273 944 manat olub.




İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsi 2023-cü ili 14 656 667 manat zərərlə başa vurub. Ötən il qurumun gəlirləri 60 666 998,86 manat, xərcləri isə 75 323 665,76 manat təşkil edib.

Hesabat dövründə Dövlət Xidmətinin əsas əməliyyat gəlirləri 57 141 158,24 manat, o cümlədən, dövlət büdcəsindən verilmiş vəsait üzrə gəlirləri 3 500 000 manat, sair əməliyyat gəlirləri 25 840,62 manat olub. Eyni zamanda istifadə edilmiş material ehtiyatları 682 790,07 manat, işçi heyəti üzrə xərcləri 53 035 433,74 manat, amortizasiya xərcləri 2 749 106,42 manat, digər əməliyyat xərcləri 4 429 038,41 manat, sair əməliyyat xərcləri 14 427 297,12 manat təşkil edib.



## Azad edilmiş ərazilərdə aşkarlanan minaların sayı açıqlandı

***Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı aylıq məlumat yayıb.***

"Unikal" xəbər verir ki, bu barədə ANAMA-dan bildirilib ki, azad olunan ərazilərdə iyul ayı ərzində 290 tank əleyhinə mina, 359 piyada əleyhinə mina, 3079 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.

Həmçinin, 6905.4 hektar ərazi minalardan təmizlənib.

## ATƏT müşahidə missiyası: "Seçkinin sonunda qənaətlərimizi açıqlayacağıq"

***"Müşahidə missiyanı Azərbaycan hökuməti dəvət edib. Demokratik Təsisat və İnsan Haqları Bürosu indiyə qədər Azərbaycanda 13 dəfə müşahidə missiyası həyata keçirib, sonuncu monitorinq fevralda erkən prezident seçkiləri zamanı həyata olub".***

Bunu ATƏT-in Demokratik Təsisat və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) müşahidə missiyasının rəhbəri Ditmir Buşati ATƏT/DTİHB müşahidəçilərinin Azərbaycanda keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri müşahidə missiyasının açılışı ilə bağlı mətbuat konfransında deyib.

O bildirib ki, fəaliyyətləri ilə bağlı Mərkəzi Seçki Komissiyası və XİN-də qeydiyyatdan keçiblər, görüşləri olub.

Əməkdaşlığa görə təşəkkürünü çatdıran D. Busati ATƏT-in 57 üzvdən ibarət olduğunu, bu ölkələrin əsas insan azadlıqları və fundamental hüquqlarla bağlı öhdəliklər götürdüyünü, bu öhdəliklərdən birinin də seçki prosesinin monitorinqi üçün DTİHB-nin dəvət edilməsi olduğunu vurğulayıb.

"Əsas komandamızın 11 beynəlxalq üzvü var və onlar ATƏT-in 11 ölkəsini təmsil edir. Əsas komandanın üzvləri növbəti bir neçə həftə ərzində Bakıda fəaliyyət göstərəcək, seçkiyə hazırlığı müşahidə edəcəklər. Təhlükəsizlik və satınalma ilə bağlı köməkçi komandamız da var. Bakıdakı əsas komandanın üzvləri Azərbaycanın digər rayonlarına səfər edəcək. Növbəti həftə - 6 avqustda isə 28 müşahidəçi Azərbaycana gələcək. Onlar regional səviyyədə uzunmüddətli müşahidə aparacaqlar", - deyə o bildirib.

Müşahidə missiyasının rəhbəri əlavə edib ki, 280 qısamüddətli müşahidəçi də prosesdə iştirak üçün müraciət edib: "Bu müşahidəçilər seçki günündən etibarən prosesdə səslərin sayılmasında iştirak edəcək. Xarici müşahidə missiyasının tərkibində olmaq üçün də ATƏT-dən missiya gələcək. Biz missiyamızı təsbit edilmiş prinsiplərə uyğun həyata keçirəcəyik. Missiyamız seçki prosesini, ona hazırlığı müşahidə edir və biz nəticələri öz hesabatımızda dərc edirik. Seçkinin sonunda isə ilkin qənaətlərimizi açıqlayacağıq. Seçki prosesinin tamamlanmasında sonra yekun hesabat bir neçə ay ərzində dərc olunacaq, bu hesabatda öz tövsiyələrimizi də təqdim edəcəyik. Biz missiyamızı şəffaf şəkildə həyata keçirəcəyik".

Qeyd edək ki, Azərbaycanda növbədənkənar parlament seçkiləri sentyabrın 1-nə təyin olunub.

26_27 IYUI-QARA.qxd 8/1/2024 9:47 PM Page 7



# Bu DSK üzvlərinin fəaliyyətinə xitam verildi



***Yaxın qohumları deputatlığa namizəd olan Dairə Seçki Komissiyaları (DSK) üzvlərinin fəaliyyətinə müvəqqəti xitam verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında məsələ müzakirə edilib.

MSK katibinin təqdimatına əsasən, 69 saylı Biləsuvar dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Ədalətli Zaur və 96 saylı Goranboy-Naftalan dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Səyavuş Quliyevin fəaliyyətinə xitam verilib. Onların əvəzinə müvəqqəti komissiya üzvləri təyin edilib.

Qeyd edək ki, Seçki Məcəlləsinə əsasən, referendum üzrə təşviqat qruplarının yaradılmasının təşəbbüsləri, namizədlərin, qeydə alınmış namizədlərin, eləcə də namizədləri irəli sürmüş siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələri, vəkil edilmiş şəxsləri, müşahidəçilər, seçki komissiyalarının məşvərətçi səs hüquqlu üzvləri, namizədlərin, qeydə alınmış namizədlərin bilavasitə tabeliyində olan şəxslər, yuxarıda göstərilən şəxslərin Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yaxın qohumları, həyat yoldaşları və həyat yoldaşlarının yaxın qohumları (uşaqlar, valideynlər, övladlığa götürülənlər, qardaşlar, bacılar, nəvələr, babalar, nənələr), seçki qanunvericiliyini əvvəllər pozmuş və yuxarı seçki komissiyasının qərarı ilə seçki komissiyasının tərkibindən xaric edilmiş və ya əvvəllər seçki qanunvericiliyini pozmaları məhkəmə qərarı ilə təsdiq edilmiş şəxslər seçki komissiyasının həlledici səs hüquqlu üzvü kimi fəaliyyət göstərə bilməzlər.

# Məişət zorakılığına qarşı qaydalar təsdiqləndi



***"Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov Qərar imzalayıb.

Qərarla Azərbaycan İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), Vəkillər Kollegiyasına, bələdiyyələrə və nizamnamələrinə əsasən məişət zorakılığının qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyətinə dəstək göstərilməsi tövsiyə edilib.

# MSK-ya müraciət edən media subyektlərinin sayı açıqlanıb



***Parlament seçkilərində iştirak edən namizədlərə ödənişli əsaslarla təşviqat üçün Mərkəzi Seçki Komissiyasına (MSK) 54 media subyekti müraciət edib.***

"Unikal" xəbər verir ki, bunu Komissiyasının iclasında MSK-nın sədr müavini Rövzət Qasımov deyib.

O qeyd edib ki, bütün namizədlərə bərabər şəraitin yaradılması üçün addımlar atıb: "Məlumatlar bu gün MSK-nın internet səhifəsində yerləşdiriləcək".

# Qarabağ Universitetinə yeni kafedra müdiri təyin edildi

***Tarzən Arslan Növrəsli Qarabağ Universitetinə kafedra müdiri təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə universitet məlumat yayıb.

Bildirilib ki, Qarabağ Universitetinin İncəsənət fakültəsinin İnstrumental ifaçılıq və musiqi müəllimliyi kafedrasına müdir təyin olunan Arslan Növrəsli Azərbaycan Milli Konservatoriyasında (AMK) tar ixtisası üzrə bakalavriat və magistratura səviyyələrində təhsil alıb.

# "Türkiyə daim Azərbaycanın yanında olub"

## Aydın Mirzəzadə: "Torpaqlar işğaldan azad edildikdən, Azərbaycan-Ermənistan sülh müqaviləsi üzərində işlər bitdikdən sonra Türkiyə-Ermənistan danışıqları da başlayır"

***VI çağırış Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Türkiyə-Ermənistan normallaşma prosesi üzrə xüsusi nümayəndələrinin 5-ci görüşündən, Ermənistan-Türkiyə sərhədlərinin hansı halda açıla biləcəyindən və Ermənistanın son vaxtlar sülh danışıqlarını uzadaraq sərhəddə təxribata cəhd etməsindən danışıb.***

-Aydın müəllim, bu günlərdə Türkiyə-Ermənistan normallaşma prosesi üzrə xüsusi nümayəndələrinin 5-ci görüşü baş tutub. Bu görüşdə bəzi məsələlər üzrə razılığa gəlinib. Bu görüşü necə qiymətləndirirsiz?



-Türkiyə daim Azərbaycanın yanında olub. Ermənistan torpaqlarımızı işğal edəndə onlarla diplomatik əlaqələri kəsib. Dünyanın müəyyən dairələrinin təzyiqinə baxmayaraq, daim Ermənistanı Azərbaycan torpaqlarından çıxmağa çağırıb. Bildiriblər ki, Ermənsitanla münasibətlərin bərpa edilməsi ancaq bu ölkənin Azərbaycanla münasibətlərindən asılıdır. Torpaqlar işğaldan azad edildikdən, Azərbaycan-Ermənistan sülh müqaviləsi üzərində işlər bitdikdən sonra Türkiyə-Ermənistan danışıqları da başlayır. Bu danışıqlar Azərbaycan-Ermənistan danışıqlarına paralel gedir. Bu günlərdə olan görüşdə isə Ermənistan və Türkiyə arasında sərhəd-keçid məntəqəsinin açılmasına hazırlıq barədə məsələ müzakirə edilib. Əvvəldən də razılaşdırılmışdı ki, bu məntəqədən ancaq 3-cü ölkə vətəndaşları keçə biləcəklər. Yəni, o insanlar ki, həm Türkiyə, həm də Ermənistana vizaları var, o zaman Türkiyə və Ermənistan qarşılıqlı surətdə məntəqənin fəaliyyətini təmin edəcəklər. Amma geniş surətdə əlaqələrin bərpa edilməsi, sərhəd-keçid məntəqələrinin tam gücü ilə işləməsi ancaq Azərbaycan-Ermənistan münasibətləri normal vəziyyətə gəldikdən, sülh müqaviləsi bağlandıqdan sonra mümkün ola bilər. Türkiyə dəfələrlə bu barədə bildirib. Heç kim narahat olmasın ki, Türkiyə-Ermənistan danışıqları bizim mövqeyimizə zərbə vura bilər. Hazırda açılış ancaq üçüncü ölkə vətəndaşlarının keçidi üçün nəzərdə tutulacaq. Qalan məsələlər isə Azərbaycan-Ermənistan danışıqlarının gedişatından və nəticəsindən asılıdır.

-Sonuncu dəfə Ermənistanın baş naziri Nikol Paşinyan Britaniyada Prezident İlham Əliyevlə görüşməkdən imtina etdi. Sülh müqaviləsindən danışan Ermənistan bu məsələni uzatmağa çalışır...

-Ermənistan bu gün danışıqları uzatmağa çalışır. Onlar çox çaş-baş vəziyyətdədirlər. Bir tərəfdən reallığı görür, Azərbaycanın gücünü hiss edirlər, digər tərəfdən isə Fransa və Hindistan Ermənistanı silahlandırmaqla regionda gərginlik ocağını yenidən alovlandırmağa çalışırlar. Bu isə Ermənistanın müəyyən dairələrində eyforiya yaradır. Reallıq ondan ibarətdir ki, Azərbaycan öz suveren hüquqlarını tam müdafiə etmək gücündədir. Ermənistanın danışıqları ləngitməsinin, görüşlərdən qaçmasının ziyanı özlərinə dəyəcək. Cənab Prezident çıxışında bildirib ki, biz sülh müqaviləsiz də yaşaya bilərik, amma Azərbaycan qonşu dövlətlərlə normal qonşuluq münasibətlərinə çalışır. Ermənistan üçün də qonşu əlini uzadıb. İstəmirlərsə, bunun zərərini Ermənistan çəkəcək. Bu gün Ermənistana investisiya qoyan yoxdur. Onlar kənardan enerji daşıyıcılarının ixracatında maraqlıdır. Ermənistan əhalisi iş yerlərinin olmamasına, infrastrukturun yenilənməməsinə görə ölkəni tərk edir. Bu isə Ermənistanın dövlətçiliyini sual altında qoyur. Otuz il bundan əvvəl 4 milyon əhalisi olan ölkənin rəsmi surətdə 2,9 milyon əhalisi var. Qeyri-rəsmi məlumata görə isə onun yarısından çoxu xarici ölkələrdə əmək miqrantı kimi çalışır.

-Ermənistanın silahlandırılmasını siz də qeyd etdiniz. İyul ayının sonlarında Ermənistanın Kəlbəcər istiqamətində ağır silahlar və Tovuz istiqamətində kvadrokopter tətbiq etməklə təxribatlar törətməsinə görə Müdafiə Nazirliyi tərəfindən onlara xəbərdarlıq olundu. Necə düşünürsüz, sərhəddə yenidən hansısa təxribat cəhdləri ola bilərmi?

-Görünən odur ki, onlar vaxtaşırı ya kvadrokopterlə işləyir, ya da mövqelərimizi atəşə tuturlar. Amma sərt cavabını alırlar. Əslində, Ermənistanın hərbi potensialı Azərbaycandan qat-qat zəifdir. Onlar görüntü yaratmağa, öz ictimaiyyətlərində bir güc olduqlarını göstərməyə, bunlara silah verən ölkələrin istəklərini yerinə yetirməyə çalışırlar. Bu baxımdan təxribat cəhdləri olur. Amma təxribatların qarşısı ciddi surətdə alınır. Xəbərdarlıq da sadəcə söz deyil. Yaxın tariximiz göstərir ki, yeri gələndə Azərbaycan düşmənin kifayət qədər ciddi şəkildə cavabını verə bilir. Əgər Ermənistan qırmızı xətti keçərsə, Azərbaycana qarşı təxribat törədərsə, onda cəzası 44 günlük Vətən müharibəsindən daha ağır olacaq.

***Anar Kəlbiyev***

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:47 PM Page 8



# Uşaq bağçaları ilə bağlı narazılıqlar artır - Nazirliyə sərt ittihamlar

## Bakıda bağçalarda 4 günə yer necə dolub? - Ortada ilginc iddialar var...

***İyulun 26-da Bakı şəhəri üzrə məktəbəqədər təhsil müəssisələrinə qəbul başlanıb. Lakin maraqlı burasıdır ki, məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu elektron qaydada www.bq.edu.az elektron sənəd qəbulu sistemi vasitəsilə aparılsa da, 4 gün ərzində bütün yerlər dolub.***

Nəticədə xeyli sayda uşaq bağçalara qəbul olmaq hüququndan məhrum edilib.

Emin Əmrullayevin rəhbərlik etdiyi Elm və Təhsil Nazirliyi isə bağçada oxumaq hüququndan məhrum olan uşaqlarla bağlı heç bir tədbir görmür. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi bağçalara qəbul oluna bilməyən uşaqların valideynlərinə "yer yoxdur" deməklə kifayətlənir.



2021-ci ildən yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri Elm və Təhsil Nazirliyinin tabeliyinə verildikdən sonra paytaxtda bağçalara qəbul planı bir qədər də artıb.

Bağçalarda valideynlərdən əlavə "aylıq ödənişlər" tələbi ləğv edilməsə də, nədənsə qəbulda problemlər yaradılır.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi hər bağçada qəbul proseduruna uyğun olaraq say müəyyən edib. Həmin saydan bir nəfər də artıq şagird qəbul edilmir.

Nəticədə 180 nəfər şagirdin təhsil almaq imkanı olan bağçalarda qəbul sayı kəskin azaldılıb. Valideynlər övladlarını daha çox özəl bağçalara yönəltməyə məcbur edilir.

İllərdir Yeni Yasamalda yerləşən 98 saylı bağçada 150 nəfərdən çox şagird təhsil alırdısa, hazırda bu say həddi azaldılıb. Səbəbi isə guya bir sinifdə 30-32 uşaqdan artıq təhsil vermək imkanının olmamasıdır.

Aylar əvvəl məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu elektron qaydada www.bq.edu.az elektron sənəd qəbulu sistemi vasitəsilə aparan valideynlərin hesabları silinib. Hər kəsdən Elm və Təhsil Nazirliyinin nəzdində Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin "finiş fitini" gözləmək tələb edilib.

İyulun 26-da Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi "finiş fitini" çalan kimi bağçalarda qəbul başlanılıb. Üzərindən 4 gün keçməsinə baxmayaraq, nədənsə bağçalarda qəbul planı dolub.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi silinən valideyn sorğuları ilə bağlı tələbləri isə rədd edir.

20 noyabr 1989-cu ildə "Uşaq hüquqları haqqında" Konvensiya BMT tərəfindən qəbul edilib və dünyanın hər bir yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş hüquqları təmin edən birinci universal kodeksdir. Bu kodeksə görə hər bir uşağın təhsil almaq hüququ var!

Emin Əmrullayev 27.07.2020-ci il tarixində Elm və Təshil Naziri təyin edilib. Nazir təyin olunana qədər isə uşaqların hüquqlarını qorumaq, valideynləri marifləndirmək üçün valideyn.az saytını işlədirdi. Qaynarinfo-nun məlumatına görə, nazir olduqdan sonra nədənsə onun uşaqlar və valideynlər üçün nəzərdə tutduğu saytı işlətməyə vaxtı olmayıb...

Yeri gəlmişkən, bağçalarla bağlı problemlər tez-tez gündəmə gəlir. Təkcə dövlət bağçalarının sayının azlığı deyil, həm də əksər dövlət bağçalarında təhsilin səviyyəsinin tələblərə cavab verməyi hər kəsə məlumdur. Nəticədə imkanı olan valideynlər özəl bağçalara üz tutur.

Yerli KİV qeyd edir ki, dövlət bağçaları ilə bağlı şikayətlərdən biri də qidalanma ilə bağlıdır. Bir sıra dövlət müəssisəsində qida zəhərlənməsi, qida rasionunun standartlara uyğun gəlməməsi haqda da mətbuatda, mediada dəfələrlə informasiyalar yayılıb.

Həmçinin bir sıra bağçalarda uzun müddət orada çalışan, lakin qeyri-ixtisas və yaxud təhsili olmayan şəxslərin olduğu da məlumdur. 2023-cü ilin yayında məlum olmuşdu ki, dövlət məktəbəqədər təhsil müəssisələrində çalışan 11 min 300 nəfər tərbiyəçi-müəllimdən 51%-nin (5800 nəfər) məktəbəqədər təhsil sahəsi üzrə müvafiq ali və ya orta ixtisas təhsili yoxdur. "Əvvəlki illərdə qəbul başqa formada, qeyri-şəffaf aparılıb. Lakin artıq yeni qaydalara əsasən bu ixtisasa yaxın ixtisasları bitirənlər imtahan verməklə tərbiyəçi kimi çalışa bilərlər" deyə Elm və Təhsil Nazirliyi vəd vermişdi.

Ancaq bu vədin də tam olaraq yerinə yetirilib-yetirilmədiyi qaranlıq olaraq qalır.

Xatırladaq ki, 2011-ci ildə Prezidentin Sərəncamı ilə məktəbəqədər təhsil müəssisələri, uşaq bağçaları və körpələr evi Təhsil Nazirliyinin balansından çıxarılaraq icra hakimiyyətlərinin tabeliyinə verilmişdi. Bundan sonra başda uşaq bağçaları olmaqla adları çəkilən müəssisələrin fəaliyyəti ilə bağlı ciddi narazılıqlar ortaya çıxdı. Nəticədə 2021-ci ildə dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında sərəncam imzalandı və dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, uşaqların məktəbəqədər təhsillə əhatə dairəsinin genişləndirilməsi və məktəbəqədər təhsilin keyfiyyətinin artırılması məqsədilə yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyinin ) tabeliyinə qaytarıldı.

Lakin aradan 3 il keçməsinə baxmayaraq dövlət məktəbəqədər təhsil müəssisələrinin işində müsbətə doğru ciddi dönüşdən danışmaq müşkül məsələdir. Bu isə Əmrullayevin rəhbəri olduğu nazirliyin ayağına daha bir mənfi hal kimi yazıla bilər...

*Sənan Mirzə*



## COP29-la əlaqədar bu tələbələr distant təhsil alacaq

***Nazirlər Kabineti "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" qərar verib.***

"Unikal" xəbər verir ki, qərara əsasən, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrində (xüsusi təhsil müəssisələri istisna olmaqla) təhsilin pillələri üzrə tədris və təlim-tərbiyə prosesinin aşağıdakı qaydada təşkili təmin ediləcək:

- ümumi təhsil pilləsi üzrə -2024-cü il noyabrın 12-dən 22-dək payız tətili;

- peşə, orta ixtisas və ali təhsil pillələri üzrə - Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 2024-cü il noyabrın 12-dən 22-dək distant (məsafədən) formada təhsil.

Elm və təhsil Nazirliyi yuxarıda qeyd edilənlər nəzərə alınmaqla təhsil proqramlarının təhsil alanlar tərəfindən tam mənimsənilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirməlidir.

## Payız tətilinin vaxtı dəyişdi - Rəsmi

***Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən ümumi təhsil pilləsi üzrə təhsil müəssisələrində (xüsusi təhsil müəssisələri istisna olmaqla) payız tətilinin vaxtı dəyişib.***

"Unikal" xəbər verir ki, xəbər verir ki, bu, Nazirlər Kabinetinin "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" qərarında əksini tapıb.

Qərara əsasən, ümumi təhsil pilləsi üzrə -2024-cü il noyabrın 12-dən 22-dək payız tətili olacaq.

Əvvəl bu müddət noyabrın 16-dan 20-dək idi.

## Səməd Seyidov müşavir təyin edildi

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki AzInTelecom MMC-nin İdarə Heyətinin Sədrinə yeni müşavir təyin edilib.***

Bu barədə "Unikal"a AzInTelecom MMC-dən məlumat verilib.

Qeyd edilib ki, bu vəzifəyə Səməd Seyidov gətirilib. Bu təyinata qədər S.Seyidov qurumun Keyfiyyət Təminatı Departamentinin direktoru olub.

Səməd Seyidov Qafqaz Universitetinin Mühəndis iqtisadiyyatı və idarəetmə, İqtisadçı-menecer ixtisası üzrə bakalavr dərəcəsi, Azərbaycan Dövlət Neft Akademiyasının Biznesin təşkili və İdarəolunması ixtisası üzrə magistr təhsili alıb.

26_27 IYUI-QARA.qxd 8/1/2024 9:47 PM Page 9





# Nazim Abbasov vəzifəsindən azad edildi

***Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin rəisi Nazim Abbasov vəzifəsindən azad edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə nazir Fərid Əhmədov əmr imzalayıb.

N.Abbasov təqaüd yaşı tamam olduğu üçün öz arzusu ilə tutduğu vəzifədən azad edilib.

Qeyd edək ki, Nazim Abbasov peşəkar istintaqçı kimi tanınır. O, uzun illər Baş Prokurorluqda İstintaqa nəzarət idarəsinin rəisi işləyib. 2019-cu ildə Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin rəisi təyin edilmişdi.

# Laçında həlak olan hərbçi dəfn edildi

## Hərbçinin atası Famil Cəbrayılov: "Avqustun 2-də Bakıya gələcəkdi..."

***Laçında həlak olan dörd hərbiçidən biri gizir Fərid Famil oğlu Cəbrayılovun meyiti Kürdəmirin Şahsevən kənd qəbiristanlığında torpağa tapşırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Baku TV" süjet hazırlayıb. Hərbçinin atası Famil Cəbrayilov bildirib ki, oğlu 10 gün əvvəl evə gəlib.

Dayısı Elxan Əhmədovun sözlərinə görə, Fərid 17 ildir hərbi xidmətdə olub və heç bir səhv addımı olmayıb: "44 günlük Vətən müharibəsində də iştirak edib. Həmişə onunla fəxr etmişik. Ailəli idi, iki azyaşlı- 2 və 4 yaşlarında övladı var. Bir həftə öncə əlaqə saxladıq, dedi "hər şey qaydasındadır, avqustun 2-də Bakıya gələcəyəm".

Xatırladaq ki, iyulun 31-də Laçın rayonu ərazisində, ilkin ehtimala görə, kükürd qazlı termal sularda çimərkən zəhərlənən Azərbaycan Ordusunun hərbi qulluqçuları - kapitan Asif Qəhrəman oğlu Emnalıyev, gizir Fərid Famil oğlu Cəbrayılov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - çavuş Tural Maşallah oğlu Səmədov və çavuş Emin Oqtay oğlu Şahmarlının meyitləri aşkar edilib.

# Azərbaycan Kinosu Günü təntənəli şəkildə qeyd olunacaq

***Avqustun 2-si Azərbaycan Kinosu Günü - kino işçilərinin peşə bayramıdır. Bu əlamətdar tarixin əsası 1898-ci il avqustun 2-də Bakıda ilk kinosüjetlərin kütləvi nümayişi ilə qoyulub.***

Ulu öndər Heydər Əliyevin 2000-ci il dekabrın 18-də imzaladığı sərəncama əsasən, 2 avqust "Azərbaycan Kinosu Günü" elan edilib.

Hər il Azərbaycan Kinosu Günü müxtəlif tədbirlərlə yadda qalır. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə *avqustun 2-də saat 17:30-da Nizami Kino Mərkəzində* ölkəmizdə kinonun yaranmasının 126-cı ildönümü və Azərbaycan Kinosu Günü münasibətilə təntənəli tədbir keçiriləcək.

Mədəniyyət xadimlərinin, kino ictimaiyyəti nümayəndələrinin və film həvəskarlarının iştirak edəcəyi tədbirdə əvvəlcə qonaqlar Nizami Kino Mərkəzinin qarşısında kinematoqrafiyamıza həsr edilən sərgi ilə tanış olacaq, eksponatlarla kinomuzun tarixinə səyahət edəcəklər.

# Azərbaycanda bəzi məmurların növbəti sabotajı

## Ətin qiymətində növbəti bahalaşma - Bu işin içində bəzi vəzifə sahiblərinin də "barmağı" var

***Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin birinci yarısında ət və ət məhsullarının qiyməti ötən ilin eyni dövrü ilə müqayisədə 2,7 % artıb. Satıcılar isə bildiriblər ki, qiymətlər 15-20 manat arası dəyişir. Əvvəllər quzu ətinin qiyməti 18 manat idisə, hazırda 19 manata təklif olunur.***

İqtisadçı Xalid Kərimli mövzunu şərh edərkən bahalaşmanın qıtlıqla bağlı olduğunu bildirib. Hazırda xırdabuynuzlu heyvanların sayında azalma müşahidə olunsa da, tələbat çoxdur.

Yeri gəlmişkən, bu günlərdə qidalanma eksperti Məhsəti Hüseynova "Cebheinfo.az"-a açıqlamasında demişdi ki, yay aylarında temperatur yüksəldikcə xüsusilə maddələr mübadiləsinin sürəti zəifləsiyindən, qırmızı ətin həzm olunması daha da çətinləşir: "Ona görə yaxşı olar ki, yay mövsümündə həftədə 2 və 3 dəfə qırmızı ət yeyilsin". Ekspert daha sonra ilginc bir məqama toxunmuşdu. Onun sözlərinə görə, dünyada ən çox ətyeyən ölkələr Luksemburq, Honq-Konq və ABŞ-dir: "Avropa, Latın Amerikası və Şimali Amerika adambaşına ən çox ət yeyilən ərazilərdir. Afrika və Cənub-Şərqi Asiya adambaşına ən az ətin yeyildiyi ölkələrdir. Azərbaycanda hər il adambaşına 19.4 kiloqram ət yeyilir. Qonşu Gürcüstanda həmin rəqəm 31.2, Ermənistanda isə 29 kiloqramdır. Türkiyədə isə bu rəqəm 21.2-dir. Nə qədər təəccüblü olsa da, Şimali Qafqaz ölkələri arasında əti ən az yeyən məhz azərbaycanlılardır".

Əslində bu deyilənlərdə təəccüblü heç nə yoxdur. Ətin qiymətində davamlı bahalaşma Azərbaycan vətəndaşlarının bu məhsula əlçatanlığını zaman keçdikcə zəiflədir.

İqtisadçı ekspertlər bunun səbəblərini şərh edərkən Azərbaycanda iribuynuzlu və xırdabuynuzlu heyvanların sayındakı azalmanı xüsusi vurğulayırlar. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü il yanvar ayının 1-nə Azərbaycanda iribuynuzlu heyvanların sayı 2,62 milyon, xırdabuynuzlu heyvanların sayı isə 7,77 milyon olub. Halbuki, 2016-ci ildə iribuynuzlu heyvanların sayı 2,70 milyon, xırdabuynuzlu heyvanların sayı 8,67 milyon idi. "Ümumilikdə görərik ki, 7 il ərzində heyvan sayı bir milyon baş azalıb. Əhali sayı 2016-ci illə müqayisədə 500 mindən çox artıb. 9,7 milyon artaraq 10,2 milyonu keçib. Beləcə, ölkəmizdə insanların sayı son 7 ildə yarım milyon nəfər artıb, heyvanların sayı isə bir milyon baş azalıb" - bir müddət əvvəl iqtisadçı ekspert Eldəniz Əmirov bildirmişdi. O, heyvanların sayındakı azalmanı həm də ölkədə örüş sahələrinin azalması ilə əlaqələndirmişdi. Sitat: "Cəmi 20 il əvvəl biçənək və örüş-otlaq sahələri 2 678 000 hektar idi. Amma 2021-ci ildə örüş-otlaq sahələri 2 417 000 hektara enib, yəni 261 000 hektar azalıb. 261 min hektar heyvandarlıq üçün çox böyük sahədir".

Örüş sahələrinin azalmasında isə müəyyən məmurların ciddi rolu var. Əvvəla, aidiyyatı qurumlar və yerli icra hakimiyyətləri bu ərazilərin suvarılması, orada yemləmə aparılması, növbəli otarılmanın təşkili baxımından demək olar ki, heç bir iş görmürlər.

Digər tərəfdən, örüş sahələrinin 30-40 faizini oliqarx-məmurların zəbt etməsi də acı həqiqətdir.

"Adam var ki, adına 5000 hektar, 100, 200, 300, 500, 1000, 2000 hektar torpaq sahəsi var. Elə icarədarlar da var ki, onlar həqiqətən əkin-biçinlə məşğuldurlar. Amma elə sahələr var ki, sadəcə, çəpərlənib, nə istifadə edilir, nə də əkilib-becərilir. Özünün beş-on heyvanını saxlayır. O böyük və istifadəsiz torpaq sahələri kimə məxsusdur? Böyük əksəriyyəti Bakıdakı məmurlara, rayonda isə vəzifə tutanlara məxsusdur. Bəs kasıb nə etsin?" - iki il öncə deputat Razi Nurullayev mətbuata açıqlamasında demişdi.



Onu da deyək ki, Prezident iki il öncə qanunsuz ələ keçirilən torpaqlarla bağlı sərt mövqe ortaya qoymuşdu. Dövlət başçısı demişdi ki, müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq, bitkiçilik rayonların xüsusiyyətlərinə görə inkişaf etməlidir: "Bununla bağlı olan çox ciddi məsələ torpaqlardan səmərəli istifadə edilməsidir. Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır".

Beləliklə, Azərbaycanda ətin, eləcə də digər kənd təsərrüfatı məhsullarının bahalaşmasında bir çox obyektiv amillərlə yanaşı, məmur özbaşınalığının da rolu danılmazdır. Xüsusilə bölgələrdə əkinçiliyin və heyvandarlığın inkişafı baxımından müstəsna əhəmiyyətə malik torpaq sahələrinin müəyyən vəzifəli şəxslər, eləcə də onlara yaxın iş adamları, bir sözlə, bəzi oliqarxlar tərəfindən ələ keçirilməsini qeyd etmək lazımdır. Bu, onların xalqa və dövlətə qarşı iqtisadi sabotajından başqa bir şey deyil.

**Toğrul Əliyev**

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:47 PM Page 10



# "Şərurlu İsfəndiyar"ın külli miqdarda cərimə şoku

## Məşhur tikinti oliqraxının başı məhkəmələrdən açılmır - Onun şirkəti ilə bağlı maraqlı faktlar ortaya çıxıb

***”Şərur” Mənzil-Tikinti Kooperativi (MTK) barəsində Ətraf Mühitin Mühafizəsi, Təbiətdən İstifadə və Ekoloji Təhlükəsizlik qaydaları əleyhinə olan (Ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının, habelə zərərli fiziki təsirlərin hədlərinin yol verilə bilən normativlərdən artıq olması) inzibati xəta protokolu tərtib olunub.***

Yerli KİV-in məlumatına görə, protokol İnzibati Xətalar Məcəlləsinin 233.1-ci maddəsi ilə irəli sürülüb.

İnzibati Xətalar Məcəlləsinin 233.1-ci maddəsinə əsasən, ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının yol verilə bilən normativlərdən artıq olmasına görə vəzifəli şəxslər 2500 manatdan 4000 manatadək, hüquqi şəxslər 10500 manatdan 12500 manatadək məbləğdə cərimə edilir.



İşə Qaradağ Rayon Məhkəməsinin hakimi Rufan Mürsəlovun sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, son vaxtlar ”Şərur” MTK-nın cərimələnməsi ilə bağlı xəbərlər intensivləşib.

Məsələn, mayda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti “Şərur” MTK-nın sahibi olan tikinti maqnatı, “Şərurlu İsfəndiyar” kimi tanınan İsfəndiyar Axundovu cərimələmişdi. İş adamına İnzibati Xətalar Məcəlləsinin 192.4-cü maddəsi ilə cərimə yazılmışdı.

Həmin maddə işçinin əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, əmək qanunvericiliyində nəzərdə tutulmuş müavinət və digər ödənişlərin hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsi ilə bağlıdır.

Maddədə inzibati cəza növü kimi vəzifəli şəxslərin 700 manatdan 1500 manatadək məbləğdə cərimə olunması nəzərdə tutulur.

İsfəndiyar Axundovun konkret hansı məbləğdə cərimələndiyi açıqlanmamışdı. Yalnız o bildirilirdi ki, iş adamı dövlət xidmətinin qərarından məhkəməyə şikayət ərizəsi ilə müraciət edib.

Apreldə isə ”Şərur” MTK barəsində yol hərəkəti qaydaları əleyhinə olan (Nəqliyyat vasitəsinin istifadəçisi barədə məlumat verilməməsi) inzibati xəta protokolu tərtib olunmuşdu.

Protokol İnzibati Xətalar Məcəlləsinin 347-ci maddəsi ilə irəli sürülmüşdü.

Məlumat üçün bildirək ki, İnzibati Xətalar Məcəlləsinin 347-ci maddəsinə görə hüquqi şəxsin mülkiyyətində və ya istifadəsində, yaxud dövlət qurumunun istifadəsində olan nəqliyyat vasitəsini inzibati xətanın törədilməsi zamanı idarə etmiş fiziki şəxs haqqında məlumatın səlahiyyətli orqanın (vəzifəli şəxsin) bu barədə sorğusu daxil olduğu vaxtdan 5 gün müddətində verilməməsinə görə vəzifəli şəxslər 150 manat məbləğində, hüquqi şəxslər 300 manat məbləğində cərimə edilir.

Bu günlərdə isə məlum oldu ki, “Şərur” MTK və rəhbəri İsfəndiyar Axundov növbəti dəfə məhkəməyə verilib. MTK və onun sahibi ilə bağlı məhkəmədə iddianı “Azərbaycan Beynəlxalq Bankı” qaldırıb. Cavabdeh qismində Anar Əsgərov Afərin oğlu da prosesə cəlb edilib.

İşin mahiyyəti müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisədir. Tərəflər kredit müqvailəsi səbəbindən məhkəməlik olub.

İşə Binəqədi Rayon Məhkəməsində baxılır. Bu ayın 13-də hakim Rəşad Qoşqarlının sədrliyi ilə işə baxılacaq.

Bu arada Azərbaycanda yaşayış evlərinin tikintisinə alınan icazələrə dair statistik məlumatlar maraqlı bir faktı ortaya çıxarıb. Belə ki, “Axşam-bazarı” iqtisadi bülletenində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təqdim etdiyi məlumatlara əsasən hazırlanan araşdırmada diqqətçəkən rəqəmlər yer alıb.

İqtisadçıların hesablamalarına görə, 2024-cü ilin aprel-iyun aylarında 479 min kvadrat metr sahəyə malik olan 4662 mənzil və kottecin tikintisinə icazə verilib. Bu sahədə lider olaraq “Şərur” MTK çıxış edir. Belə ki, qeyd olunan dövrdə adıçəkilən MTK 1414 mənzilin tikintisinə icazə alıb.

O da aydınlaşıb ki, ”Şərurlu İsfəndiyar”ın şirkəti ilə sözügedən siyahıda ikinci yeri tutan şirkət arasında mənzil tikintisi baxımından kəskin fərq var. Belə ki, ”Şərur” MTK-dan sonrakı yerdə 94 789,52 kvadrat metrlik 1 198 mənzillə “Kristal Abşeron” ASC gəlir. “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxs də ”Şərurlu İsfəndiyar”ın şirkətindən ciddi fərqlə geridə qalıb. Üçüncü yerdəki bu qurum cəmi 482 mənzilin tikintisinə icazə alıb ki, onların ümumi sahəsi 54 641,80 kvadrat metrdir.

Onu da deyək ki, ”Şərur” MTK 2001-ci ildən fəaliyyət göstərir. Şirkətin sahibi İsfəndiyar Axundov ölkənin aparıcı tikinti maqnatı olmaqla yanaşı onun adı zaman-zaman qalmaqallı hadisələrdə hallanır.

Son vaxtlarda isə onun şirkəti lift qəzaları səbəbindən tənqid hədəfinə çevrilib. İyunda “Həzi Aslanov” stansiyasının yaxınlığında, Xudu Məmmədov küçəsində yerləşən “Şərur MTK” yaşayış kompleksində baş verən qəzada 8 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdı. Bundan əvvəl isə adı çəkilən MTK-nın tikdiyi - Xətai rayonu, Gəncə prospekti 2980/81 ünvanındakı binanın liftində də qəza baş vermişdi. Baş verən həmin qəzada 4 nəfər xəsarət almışdı.

Ötən il isə Nərimanov rayonunun Bakıxanov küçəsi, 66 ünvanında yerləşən “Şərur” MTK-ya məxsus çoxmərtəbəli yaşayış binasının sakinləri istismarda olan liftdən şikayətçi idilər.

Belə ki, FHN-ə “Şərur” MTK-ya məxsus çoxmərtəbəli yaşayış binasında liftin qəzalı vəziyyətdə istismar olunması barədə vətəndaşlar tərəfindən müraciət edilmişdi. Müraciətlə əlaqədar dərhal FHN Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin müfəttişləri tərəfindən həmin binadakı liftə texniki baxış keçirilmiş və baxış zamanı həqiqətən də liftin müvafiq təhlükəsizlik tələblərinə riayət olunmadan istismar edildiyi və insan həyatı və sağlamlığı üçün təhlükə yaratdığı müəyyənləşdirilmişdi. Həmin liftin vaxtilə “İrəvan SSR” lift zavodunun istehsalı olduğu üzə çıxmışdı...

Xudu Məmmədov küçəsində yerləşən binadakı liftin qırılmasından sonra yerli media həmin olayı belə qiymətləndirmişdi: ”Göründüyü kimi, bu, “Şərur” MTK-ya məxsus binalardakı nə ilk hadisədir və belə davam edərsə, sonuncu da olmayacaq...”

***Sənan Mirzə***



# Uçot dərəcəsinin endirilməsi kredit faizlərini azaldacaq?

## Vüqar Bayramov: “Kreditlərin ucuzlaşa bilməsi mümkünlüyünə gəldikdə, hələlik uçot dərəcəsinin bu faizlərə ciddi təsiri yoxdur”

***”Mərkəzi Bankın qərarı ilə uçot dərəcəsi 7.25%, faiz dəhlizinin aşağı həddi 6.25%, faiz dəhlizinin yuxarı həddi isə 8.25% səviyyəsində dəyişməz saxlanılıb. Qərar bu gündən qüvvəyə minib”***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, uçot dərəcəsinin stabil saxlanılması inflyasiya meyillərinin hədəf diapazonu daxilində formalaşması və makroiqtisadi stabilliyin qorunması ilə bağlıdır: ”2023-cü ilin noyabr ayından başlayaraq Mərkəzi Bank uçot faiz dərəcəsinin azaldılması ilə bağlı qərarlar qəbul edib. Noyabrın 2-də faiz dərəcəsini 9-dən 8.5 faizə endirən Mərkəz Bank ötən ilin son ayında da əlavə 0.5 faizlik azalmaya getmişdi. 2024-cü ilin əvvəlində eyni yanaşma davam etdirilsə də, porses artıq stabilləşmə fazasına daxil olub. Makroiqtisadi stabillik və istehlak bazarındakı mövcud qiymət səviyyəsi bu qərara zəmin yaratsa da inflyasiya proqnozunun hədəf diapazonu daxilində yenilənməsi manatın nominal effektiv məzənnəsinin tempi və tənzimlənən qiymətlərdə dəyişikliklər ilə bağlıdır. Bu isə illik inflyasiya dərəcəsinin hədəf diapazonu daxilində olmasına imkan yaratsa belə göstəricidə dəyişikliklərə səbəb ola bilər”.

V.Bayramov qeyd edib ki, Mərkəzi Bank uçot dərəcəsini dəyişdirən zaman ən çox verilən sual bu qərarın kredit faizlərinə necə təsir etməsi ilə bağlıdır: ”Kreditlərin ucuzlaşa bilməsi mümkünlüyünə gəldikdə, hələlik uçot dərəcəsinin bu faizlərə ciddi təsiri yoxdur. Bu təsirlərin müşahidə olunması üçün hələ bir müddət lazımdır. Bu heç də Mərkəzi Bankın mövcud fəaliyyəti ilə bağlı deyil. Bununla yanaşı, Mərkəzi Bankın belə qərarlarının gəlirlik əyirisi ilə yanaşı kredit və depozit bazarına təsir göstərməsi olduqca vacibdir. Digər tərəfdən, son aylar depozit faizlərində artımlar davam edir. Artıq sistem əhəmiyyətli banklar illik manat depozitlərini 10.0 faizlə qəbul edirlər. Bir müddət öncə orta hesabla 6.0 faiz təklif olunurdu. Kredit faizlərində artımların olmaması üçün uçot dərəcəsi daxil olmaqla digər alətlər vasitəsi ilə kredit faizlərində optimallığın qorunması çox vacibdir”.

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:47 PM Page 11



# Füzuliyə köç edən sakinlərə mina təhlükəsi ilə bağlı təlim keçirilib



***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) birgə əməkdaşlığı çərçivəsində "Risklər barədə maarifləndirmə və təhlükəsiz davranış" mövzusunda daha bir təlim keçirilib.***

"Unikal" xəbər verir ki, iyul ayında növbəti dəfə təşkil edilən təlim Füzuli rayonuna köçürülmüş və dayanıqlı məskunlaşması təmin edilən sakinlər arasında olub. Maarifləndirici təlimlərin keçirilməsində əsas məqsəd İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlərin mina və partlamamış hərbi sursatlarla (PSD) bağlı məlumatlılığının artırılması, mümkün risk faktorunun minimuma endirilməsidir.

AzQAC-ın mütəxəssis və könüllülərindən ibarət heyət bu dəfə Füzuli şəhərinə səfər edib. Təlimçilər "Qapı-qapı" sessiyası çərçivəsində mənzillərə gedərək hər bir ailəyə zəruri məlumatlar verib, onların suallarını cavablandırıblar.

Təlimlərin zamanı qadağanedici, xəbərdaredici və məlumatlandırıcı nişanlar barədə ətraflı məlumatlar verilib, maarifləndirici broşürlər paylanılıb, təhlükə zamanı müraciət edilə biləcək dövlət qurumları və əlaqə vasitələri xatırladılıb.

Xatırladaq ki, ilk mərhələdə təlimlər Bakı şəhərində keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Qaradağ rayonudakı "Qobu Park" yaşayış kompleksində ayrı-ayrılıqda vətəndaşlar və məktəb yaşlı şəxslər üçün təşkil olunub. Daha sonra bu proses yataqxana, inzibati bina və yarımtikililərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün davam etdirilib.

Füzuli şəhərində iyul ayı ərzində mina təhlükəsi ilə bağlı maarifləndirmə həftəsində ümumilikdə 500-dən çox şəxs məlumatlandırılıb.

Ümumilikdə, mina və PSD təhlükəsi ilə bağlı maarifləndirici təlimlərə indiyədək 20 000-dən çox şəxs cəlb edilib. Təlimlərin keçmiş məcburi köçkünlərin sıx məskunlaşdıqları digər ərazilərdə silsilə şəklində davam etdirilməsi nəzərdə tutulur.

# Daxili işlər naziri sıra baxışı keçirdi

***Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.***



Bu barədə "Unikal"a nazirliyin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, sıra baxışında 122 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 15 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərində də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Ucarda sənayedə istehsal belə olub

***Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin yanvar-iyun aylarında 7736,3 min manatlıq məhsul istehsal edilib.***

Sənaye istehsalı indeksi 97,4 faiz təşkil etmişdir. 2024-cü ilin yanvar-iyun aylarında sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 1875,0 min manatı və ya 24,2 faizi dövlət sektorunun, 5861,3 min manatı və ya 75,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

***Emin Qəhrəmanov,***
***Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi***

# Sabiq deputat-biznesmenin oğlundan mandat qalmaqalı

## Fərhad Qəribovun artıq ikinci dəfədir deputat olmaq istəyən oğlu arzusuna çata biləcəkmi?



***Bu günlərdə mediada məlumat yayıldı ki, keçmiş deputat, ləğv olunmuş "Debüt Bank"-ın sabiq sədri Fərhad Qəribovun oğlu Rəşad Qəribov Kürdəmirdə qalmaqal yaradıb.***

Məlumatlı mənbələrdən "Az-Politika"-ya daxil olan məlumatda bildirilirdi ki, R.Qəribov 62 saylı seçki dairəsindən bitərəf kimi namizədliyini irəli sürüb. Rayonda iri biznes sahibi olan iş adamı qısa müddətdə imzaları və sənədlərini Dairə Seçki Komissiyasına (DSK) təqdim edib. Amma komissiya sədri iş başında olmadığına görə sənədlər qəbul olunmayıb. DSK sədri xəstəxanada, sistem altında olduğunu bildirib və gün ərzində DSK-ya gələ bilməyəcəyini deyib.

Bundan qəzəblənən Rəşad Qəribov işçilərini və qohumlarını seçki komissiyasının ətrafına toplayaraq, imzalarının qəbul edilməsini tələb edib. Nəticədə, 300-ə qədər Kürdəmir sakini DSK-nın qarşısına yığılıb və əraziyə polis əməkdaşları cəlb edilib. Daha sonra R. Qəribovun göstərişi ilə toplaşanlar evlərinə dağılışıb.

Xatırladaq ki, nə sabiq deputat və biznesmen, nə də onun deputatlığa namizədliyini irəli sürmək istəyən oğlu yayılan xəbərə reaksiya verməyib. O, 2020-ci ildə 9 fevral növbədənkənar parlament seçkiləri ərəfəsində 57 saylı Kürdəmir Seçki Dairəsindən deputat mandatı qazanmaq fikrinə düşüb.

"2005 və 2010-cu illərdə onun atası Fərhad Qəribov məhz bu dairədən Milli Məclis üzvü olmuşdu. 2015-ci ildə sabiq deputat yenidən mandat qazanmağı çox arzulayırdı, lakin onun arzusu elə arzu olaraq qaldı. 2020-ci ildə isə Fərhad müəllim bu dəfə oğlunun millət vəkili seçilməsi üçün səy göstərməyə başladı" deyən mənbələr əlavə edirlər ki, həmin il 57 saylı dairədə kuryoz vəziyyət yaranmışdı: "Hakim partiya həmin dairədən Fərhad Qəribovun əmisi oğlu Nizami Qəribovun namizədliyini irəli sürdü. Məsələ ondadır ki, Fərhad Qəribovun mandat aldığı 2005-ci il seçkilərindəki əsas rəqibi də həmin vaxt yenə YAP-ın rəsmi namizədi olmuş Nizami Qəribov idi. Maraqlıdır ki, eks-deputatın əmisioğlu 2015-ci il seçkilərində növbəti dəfə namizəd kimi irəli sürüldü və bu dəfə 1980-ci il təvəllüdlü Müslüm Məmmədova uduzdu. 2020-ci il seçkilərində isə Fərhad Qəribovun oğlu ilə bağlı deputatlıq planı reallaşmadı, elə onun əmisioğlunun da əslində YAP tərəfindən növbəti dəfə formal namizəd kimi irəli sürüldüyü deqiqləşdi".

"Lakin belə görünür ki, sabiq deputat və biznesmen öz oğlunun millət vəkili seçilməsində israrlıdır" deyən qaynaqlar onun imzaları və digər sənədləri DSK-ya verərkən yaşanan qalmaqalı da bu israrın təzahürü adlandırırlar.

Maraqlı burasıdır ki, bu ilin iyununda R.Qəribovun şirkətinin artıq ləğv edilən və vaxtilə onun atasına məxsus olmuş "Debüt bank"a kredit borcu ilə bağlı məhkəmə çəkişməsi mediaya sızmışdı. Həmin vaxt bildirilirdi ki, oğul Qəribova məxsus "Elz-Line LTD" MMC ilə "Debüt" Kommersiya Bankı arasında bu məhkəmə çəkişməsini ilk instansiyada şirkət uduzub. Bundan sonra "Elz-Line LTD" MMC qərardan apellyasiya şikayəti vermişdi.

"Debüt" Kommersiya Bankı kredit müqaviləsinə dair mübahisələrə görə Bakı Kommersiya Məhkəməsində R.Qəribovun şirkətinə qarşı iddia qaldırmışdı. İddiaçılardan biri də Əmanətlərin Sığortalanması Fondu idi. Fondun bu işdə iddiaçı kimi çıxış etməsi təsadüfi deyildi. Qeyd etdiyimiz kimi, "Debüt" Kommersiya Bankı vaxtilə Fərhad Qəribova məxsus olub. 2024-cü ildən Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru Tural Piriyev banka rəhbərlik etməyə başlayıb. Bu fakt bankın Fərhad Qəribovun nəzarətindən çıxması kimi izah edilir.

Beləliklə, Fərhad Qəribov "Debüt"ü əldən verdikdən sonra ləğv prosesində olan bank problemli kreditlərlə bağlı hərəkətə keçib.

İddialara görə, ilk addım daha böyük məbləğli kreditlərlə bağlı atılır ki, bu sırada Rəşad Qəribovun şirkəti ön sıralarda gəlir.Vaxtilə Tiflisdəki kazinolardan birində külli miqdarda pul uduzmasından tutmuş "Gənclik" metrostansiyası yaxınlığındakı bir neçə milyon manatlıq villasını girov qoymasınadək çox sayda qalmaqallarla gündəmə gələn Fərhad Qəribovun özü kimi oğlu barəsində də ilginc xəbərlər mütəmadi gündəmə gəlir. "Debütbank" Müşahidə Şurasının sədri olmuş Rəşad Qəribov bir neçə il əvvəl 14 milyon manat məbləğində mənimsəmə ittihamı ilə Emin Əmirov adlı şəxsə qarşı məhkəmə iddiası qaldırmışdı. Lakin Əmirov deputat oğlunun iddialarını rədd edərək, Qəribovdan cəmi 4 milyon manat aldığını və onu da artıqlaması ilə qaytardığını bildirmişdi.

Oğul Qəribovun adının hallandığı daha bir qalmaqal isə vergidən yayınmaq ittihamı ilə 2018-ci ilin dekabrında onun barəsində cinayət işinin açılmasıdır. Lakin qəribədir ki, Vergilər Nazirliyinin təqdimatı ilə açılan cinayət işinə məhkəmə tərəfindən xitam verilmişdi. Üstəlik, Nazirliyin apellyasiya və kassasiya şikayətinə baxmayaraq, müvafiq məhkəmələrin xitam qərarını qüvvədə saxlaması da həmin vaxt cəmiyyətdə və mediada təəccüblə qarşılanmışdı.

Bütün bunlardan sonra sabiq deputat oğlunun millət vəkili olmaq üçün ikinci cəhdinin nə ilə nəticələnəcəyi maraq doğurur.

***Sənan Mirzə***

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:47 PM Page 12



## 5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətəndaş cəmiyyətinin inkişafında bələdiyyələrin böyük rolu var!

### Tahir Rzayev: “Bələdiyyələrin birləşməsi özünün müsbət nəticələrini verib”

***Azərbaycan dövləti vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolunda uğurla irəliləyir. Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə geniş imkanlar yaradılır. Vətəndaş cəmiyyətinin formalaşmasında yerli özünüidarəetmə orqanlarının rolu böyükdür.***



Dövlət başçısının təşəbbüsü ilə son illər yerli özünüidarəetmə orqanlarına dövlət dəstəyi gücləndirilib. Artıq bələdiyyələrin gəlir və xərclərinin tənzimlənməsi, yerli büdcə kəsirinin qapadılması məqsədi ilə hər il dövlət büdcəsindən bələdiyyələrə dotasiyalar ayrılır. Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində vacib addımlar atılır. Həmçinin yerli özünüidarəetmə orqanları ilə dövlət, qeyri-hökumət və donor təşkilatlan arasında əlaqələr qurulur.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, millət vəkili Tahir Rzayev “Unikal” qəzetinə müsahibəsində bildirib ki, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu durmadan inkişaf edirsə, onda bu cəmiyyətdə bələdiyyələrin yeri və mövqeyi də möhkəm olmalıdır: “Azərbaycan demokratik ölkədir və ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı diqqət mərkəzində saxlanılır. Əgər ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu gedirsə, cəmiyyət durmadan inkişaf etdirilirsə, onda bu cəmiyyətdə bələdiyyələrin yeri və mövqeyi möhkəm olmalıdır. Çünki bələdiyyələr də demokratik inkişafın və vətəndaş cəmiyyəti quruculuğunun bir nümunəsidir. Yerli özünüidarəetmə orqanları yarandığı gündən insanlarla birgə fəaliyyətdədirlər. Əlbəttə ki, bu sahədə mənfi amillər də mövcuddur. Amma həmin amillər zamanla aradan qaldırılır və bələdiyyələrin seçicilərlə qarşılıqlı əməkdaşlığı nəticəsində müəyyən irəliləyişlər əldə olunub. Sözsüz ki, vətəndaş cəmiyyəti olaraq bələdiyyələrin vətəndaşlarla sıx təmasda işləməsi həm onların fəaliyyətinin genişləndirilməsi, onlara yüksək etimadın göstərilməsi, eləcə də ölkənin sosial-iqtisadi inkişafı baxımından əhəmiyyətlidir. Bir çox bələdiyyələr var ki, onlar öz fəaliyyətlərini qanunvericiliyin tələbləri əsasında qura biliblər. Lakin zaman bələdiyyələrin müəyyən qaydada formalaşmasını tələb edir. Bu gün insanların artan tələb və ehtiyacları yerli özünüidarəetmə orqanlarını daha səmərəli işləməyə vadar edir. Təbii ki, bu istiqamətdə müəyyən islahatlara gedilməsi, görülən işlərin təkmilləşdirilməsi əhəmiyyətlidir”.

Deputat deyir ki, bələdiyyələrdə iki dəfə islahatların aparılması, onların sayının azaldılması və birləşdirilməsi özünün müsbət nəticələrini verib. Onun sözlərinə görə, cəmiyyət də bu prosesləri yaxşı qarşılayır. Çünki onların bələdiyyələrdən umacağı var.

“Bir çox sosial-iqtisadi, yerli əhəmiyyətli məsələlər var ki, bilavasitə həmin məsələləri bələdiyyələr həll etməlidirlər. Bu məsələlərin həlli insanların rahatlığı üçün çox vacibdir. Ona görə də zaman keçdikcə hökümət tərəfindən bələdiyyələrin inkişafı üçün müəyyən addımlar atılır. Dövlət yerli özünüidarəetmə orqanlarının təkmilləşdirilməsinə daim diqqət yetirir və bələdiyyə üzvlərinin fəallığının artırılması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. Gələcəkdə qanunla bələdiyyələrin sayının bir daha azaldılması nəzərdə tutulur ki, bu da daha iri bələdiyyələrin formalaşdırılmasına şərait yaradacaq. Belə ki, qanunla əhali sayı 3000 nəfərdən az olan bələdiyyələr birləşdiriləcək. Bu olduqca əhəmiyyətli islahatdır. Çünki iri bələdiyyələr daha yaxşı işlər görməyə malik ola bilərlər. Bu da istər əlaqələrin yaxşılaşdırılması, istərsə də müəyyən təşkilatçılıq işlərinin səmərəli yerinə yetirilməsi üçün önəmli ola bilər”.

Millət vəkili onu da qeyd edib ki, bu gün vətəndaş cəmiyyətinin inkişafında bələdiyyələrin rolunu qiymətləndirərkən fərqli fikirlər də meydana çıxır: “Bir çox insanlar bələdiyyələrin fəaliyyətini tamamilə inkar edirlər. Bəziləri bununla bağlı nümunələr gətirirlər. Ancaq mən deyərdim ki, bu inkişafda bələdiyyələrin də rolu var. Əgər vətəndaşlar bələdiyyələrə müraciət edirlərsə, onları yeni layihələr həyata keçirməyə həvəsləndirirlərsə, deməli, bələdiyyələr müəyyən mənada ictimai həyatda özlərini göstərib və göstərməkdədirlər. Bizim hər birimiz seçiciyik və cəmiyyət olaraq bələdiyyələrə müəyyən qaydada dəstək verməliyik. Çox təəssüflər olsun ki, bu gün vətəndaş-bələdiyyə münasibətlərində müəyyən problemlər yaşanır. Əgər bu gün vətəndaşlar bələdiyyələrdən müəyyən hesabatlar tələb edirlərsə, onların maliyyə vəsaitləri ilə maraqlanırlarsa, gördükləri işə nəzər salırlarsa, onlar da bələdiyyələrin iclaslarında fəal iştirak etməlidirlər. Təklifləri, fikirləri ilə bilavasitə yerli özünüidaətmə orqanlarına kömək olmalıdırlar. Etiraf edək ki, bəzən seçici özünün formalaşdırdığı orqanın fəaliyyətinə laqeyd yanaşır. Təbii ki, qarşılıqlı əlaqələrin olmaması müəyyən problemlər yaradır. Ancaq görülən işlər, qarşıda duran vəzifələr, həyata keçirilən layihələr, qəbul edilən qərarlar bələdiyyələrin gələcəyinə ümidlə baxmağa inam yaradır. Sözsüz ki, yerli özünüidarəetmə orqanları bu sahədə özlərinin fəaliyyətini daim artırmağı qarşıya əsas məqsəd kimi qoymalıdırlar”.

Xatırladaq ki, bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.



## Birinci Qarabağ müharibəsinin şəhidi Surxay Məmmədov dəfn edildi

***Avqusun 1-də Birinci Qarabağ müharibəsində itkin düşən və 31 ildən sonra şəxsiyyəti müəyyənləşdirilən Daşkəsən rayonunun Qabaqtəpə kənd sakini şəhid hərbçi Məmmədov Surxay Rza oğlunun Gəncə Şəhidlər Xiyabanında dəfn edilib.***

”Unikal” xəbər verir ki, dəfn mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov, Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları, şəhid ailələri, müharibə veteranları və əlilləri, rayon sakinləri və KİV mənsubları iştirak ediblər.

Şəhidin cənazə namazı ailəsinin yaşadığı evdə qılınıb, ruhuna dualar oxunub.

Sonra şəhidin nəşi Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb, məzarı üstünə gül dəstələri düzülüb.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub və yaylım atəşi açılıb.

Şəhidin tabutuna bürünmüş Azərbaycan Bayrağını icra başçısı Orxan Abbasov şəhidin qardaşı Vüqar Məmmədova təqdim edib.

Qeyd edək ki, şəhid Məmmədov Surxay Rza oğlu 7 dekabr 1974-cü ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. O, könüllü olaraq Qarabağda gedən döyüşlərə qatılıb. 8 fevral 1993-cü ildə Ağdərə rayonunun Mehmanə kəndi ərazisində erməni silahlı dəstələri ilə gedən döyüşlərdə hərbi xidməti borcunu yerinə yetirərkən müqəddəs şəhidlik zirvəsinə ucalıb. İtkin düşmüş hesab olunan Surxay Məmmədovun nəşinin qalıqları İsmayıllı Şəhidlər Xiyabanında dəfn olunan naməlum şəhid qəbirlərindən aşkar edilib.

*Tural Əhmədov*

## ADA Universitetində doktorantlar yetişdiriləcək

***“Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı”nda dəyişiklik edilib.***



”Unikal” xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov Qərar imzalayıb.

Qərara əsasən, “Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı”na “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi üzrə” bölmə əlavə edilib.

Bununla artıq ADA Universitetində də Xarici İşlər Nazirliyi üzrə fəlsəfə doktoru istiqamətində doktorantlar yetişdiriləcək.

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:48 PM Page 13



# Siyəzəndə sənaye sahəsində artım olub




***Siyəzən rayonu üzrə 2024-cü ilin yanvar-iyun aylarında 16572,4 min manatlıq və ya 2023-cü ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 15,7 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xidmətləri göstərilib.***

İstehsalın ümumi həcmində mədənçıxarma sektoru 28,3 faiz, emal sektoru 30,4 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektoru 36,6 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektoru 4,7 faiz təşkil etmişdir. Məhsulun 50,4 faizi qeyri-dövlət sektorunun payına düşmüş və 2023-cü ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 96,7 faiz artmışdır.

Mədənçıxarma sektorunda 2024-cü ilin yanvar-iyun ayları ərzində 4690,8 min manatlıq məhsul istehsal edilmiş və 2023-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 17,6 faiz artmışdır.

Emal sektorunda 2024-cü ilin yanvar-iyun ayları ərzində ərzində 5034,9 min manatlıq məhsul istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 55,5 faiz artmışdır.

Emal sektorunda 2023-cü ilin müvafiq dövrünə nisbətən qida məhsullarının istehsalı 15,0 faiz artmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın real həcmi 2023-cü ilin yanvar-iyun aylarına nisbətən 6,3 faiz azalmış, rayon əhalisinə və digər istehlakçılara 45,25 milyon kVT-saat elektrik enerjisi, 21,7 milyon kub metr təbii qaz, 0,64 min Qkal istilik enerjisi verilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsalın həcmi 7,3 faiz artmış, əhaliyə və digər istehlakçılara 0,87 milyon kub metr təbii su verilmişdir.

*Kamil Xəlilov*
*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*

# Ağcabədi sakinlərindən 10 ədəd tüfəng götürülüb



***Ağcabədi rayon sakinləri 10 ədəd tüfəngi polisə könüllü təhvil veriblər.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən vətəndaşlarda olan qanunsuz silahların könüllü təhvil verilməsinin təmini istiqamətində profilaktika davam etdirilir.

Ötən həftə ərzində keçirilən tədbirlərlə rayon sakinləri ikisi yivli olmaqla, ümumilikdə 10 ədəd müxtəlif markalı ov tüfəngini polisə könüllü təqdim ediblər.

# Ucarda kənd təsərrüfatının statistik göstəriciləri

***Rayonda taxıl sahələrindən ümumilikdə 39 min 370 ton taxıl biçilib.***

Biçilmiş məhsulun 16 min 978 tonunu buğda, 22 min 392 tonunu arpa təşkil etmişdir. Hər hektarın orta məhsuldarlığı buğda sahəsində 27,4 sentner, arpa sahəsində isə 27,2 sentner olmuşdur. Hazırda rayonda 2025-ci ilin məhsulu üçün taxıl əkininə hazırlıq işləri davam edir.

*Şakir Qasımov,*
*Ucar Rayon Statistika İdarəsinin rəis müavini*

# Magistraturaya boş qalan yerlərə qəbul elan edildi

***Dövlət İmtahan Mərkəzi 2024/2025-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarının boş qalan yerlərinə qəbul olmaq üçün 2024-cü il avqustun 1-dən 8-dək ixtisaslaşma seçimi elan edir.***



Mərkəzdən "Unikal"a verilən xəbərə görə, boş qalan plan yerlərinə qəbul 11 fevral və 28 aprel 2024-cü il tarixlərində keçirilmiş qəbul imtahanının birinci və ya ikinci cəhdində toplanılmış ballar əsasında müsabiqə yolu ilə aparılır (müsabiqə şərtləri). Boş qalmış ixtisaslaşmaların seçiminə magistraturaya qəbul imtahanının birinci və ya ikinci cəhdinin (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən, müəyyən edilmiş minimal tələbləri ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılırlar.

Keçirilmiş müsabiqə nəticəsində magistraturaya qəbul olmuş bakalavrın müəyyən olunmuş müddətdə təhsil müəssisəsində qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisaslaşma üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu bakalavrların ixtisaslaşmaların boş qalan yerlərinə keçirilən müsabiqədə iştirak etməsinə icazə verilmir.

Həmin bakalavrlar boş qalan yerlərə keçirilən müsabiqədə iştirak etmək üçün 8 avqust saat 23:59-dək DİM-in internet saytının müvafiq səhifəsinə daxil olaraq seçdikləri ixtisaslaşmaların kodlarını "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə qeyd edib təsdiqləməlidirlər.

Bakalavrlar öz istəklərinə görə ixtisaslaşma seçimində və müsabiqədə imtahanın hər hansı bir cəhdində göstərdikləri nəticə (topladıqları bal) əsasında iştirak edə bilərlər. Hər iki imtahan nəticəsi müsabiqə şərtini ödəyən bakalavrlar müsabiqədə iştirak etmək istədikləri imtahan nəticəsini seçirlər.

İxtisaslaşma seçimi aparılan müddətdə bakalavr bitirdiyi ixtisasa müvafiq və istəyinə uyğun olan proqram(lar)ı və həmin proqram(lar)a aid olan 20-dək boş qalmış ixtisaslaşmanın kodunu seçərək "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"nə istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilən bütün ixtisaslaşmalar seçim cədvəlinə əsasən bakalavrın bitirdiyi ixtisasa görə seçmək hüququ olan bir və ya daha çox sayda qəbul proqramına aid ola bilər.

Boş qalan plan yerləri olan ixtisaslaşmaların siyahısı "Magistr" jurnalının 6-cı sayında dərc olunub.

Jurnalı DİM-in əsas inzibati binasından (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299), həmçinin kitab mağazalarından almaq və ya www.abiturient.az saytından sifariş etmək mümkün olacaq.

# Bu qidalar miqreni gücləndirir

***Miqren baş ağrısından daha çox, həyata mənfi təsir edən ciddi sağlamlıq problemidir. Bir çox insan müəyyən qidaların miqreni gücləndirə bildiyini bilmir. Bəs, hansı qidalar buna səbəb ola bilər?***

**"Unikal" miqrenə səbəb olan qidaları təqdim edir:**



**1. Köhnə pendir**

Aparılan araşdırmalar nəticəsində köhnə pendirin miqrenə səbəb olan qidalardan biri olduğu məlum olub. Köhnə pendirlər tiramin adlı birləşməni ehtiva edən qida hesab olunur. Miqren xəstələri köhnə pendirlərdən uzaq durmalıdırlar, çünki bu birləşmə bədəndəki nörotransmitterlərlə əlaqədə olaraq miqrenə səbəb olur.

**2. MSG**

MSG kimi tanınan monosodium glutamat bir çox qida və qida əlavələrində mövcud olan natrium duzudur. Təbii olaraq pomidorda olan bu birləşmə ketçup və manqal sousunda dad artırıcı kimi də istifadə olunur.

**3. Emal edilmiş ətlər**

Kolbasa və hinduşka sendviçləri kimi qidalar da miqreni artıra bilir. Bundan əlavə, bu ətlərin istehlak edilməməsi tövsiyə olunur, çünki onların tərkibində natrium nitrat adlı qoruyucu maddə var ki, bu da miqren üçün təhlükəlidir.

**4. Süni dadlandırıcılar**

Aspartam süni tatlandırıcılardan biridir. Mütəxəssislərin fikrincə, süni dadlandırıcılar miqren xəstələrinin diyetindən xaric etməli olduğu qidalardır.

**5. Alkoqol**

Miqren xəstələri üzərində aparılan araşdırmaya görə, spirtli içkilərin miqren xəstələrinin təxminən 35 faizində miqreni gücləndirdiyi müəyyən edilib. Bundan əlavə, bəzi tədqiqatlar spirtli içkilərin baş ağrısına səbəb olan susuzluğa səbəb ola biləcəyini müəyyən edib.

**6. Həddindən artıq kofein istehlakı**

Kofein digər tərəfdən miqreni artırdığı və müalicəvi xüsusiyyətləri ilə uzun illər miqren ilə əlaqələndirilir. Araşdırmaya görə, həddindən artıq kofein istifadəsi miqrenə səbəb olur və kofeinin qəfil rasyondan çıxarılması miqren hücumlarına səbəb olur.

**7. Şokolad**

Şokoladın miqreni artıran ən çox yayılmış qidalardan biri olduğu müəyyən edilmişdir. Bundan əlavə, bəzi ekspertlər yaxınlaşan şirniyyat istəyinin miqrenin səbəbi deyil, yaxınlaşan miqrenin əlaməti olduğunu düşünülür.

**8. Fındıq**

Fındığın tərkibində olan fenilalanin adlı maddə miqrenin güclənməsinə səbəb olduğu müəyyən edilmişdir. Ancaq bu qidanın hər kəsə təsir etdiyinə dair heç bir sübut yoxdur. Tərkibində fenilalanin olan bir ovuc qoz-fındıq yedikdən sonra 4-12 saat ərzində başınız ağrıyırsa, bu zaman qozfındıqların buna səbəb ola biləcəyini söyləmək olar.

**9. Sitrus meyvələri**

2016-cı ildə təxminən 26 min qadın üzərində aparılan bir araşdırma, sitrus meyvələrinin miqren üçün potensial artırıcı olduğu müəyyən edilmişdir.

*Zərifə Nağıyeva*

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:48 PM Page 14



# 2024-cü ilin yanvar-iyun aylarında Balakənin iqtisadi və sosial inkişafının göstəriciləri

***Məhsul istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-iyun aylarında ilkin hesablamalara görə 1,1 faiz azalaraq 154479,0 min manat təşkil etmişdir. Məhsul istehsalının 27,0 faizi sənaye, 0,5 faizi tikinti, 38,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,8 faizi informasiya və rabitə, 30,7 faizi isə ticarət, nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***



2024-cü ilin yanvar-iyun aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 41690,1 min manat olmuşdur. Qeyri-dövlət sektorunda istehsalın və xidmətlərin həcmi 36260,8 min manat və sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi 87,0 faiz olmuşdur. Dövlət bölməsində isə sənaye məhsulu istehsalının həcmi 5429,3 min manat olmaqla sənaye məhsulunun ümumi həcminin 13,0 faizini təşkil etmişdir.

İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş xidmətlərin 87,0 faizi emal sənayesinin, 11,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin payına düşür.

2024-cü ilin yanvar-iyun aylarında yüklənmiş malların həcmi 42687,4 min manat olmuş, o cümlədən öz istehsalı olan malların həcmi 41759,7 min manat təşkil etmişdir. Bununla yanaşı 2024-cü ilin iyul ayının 1-i vəziyyətinə sənaye müəssisələrin anbarlarında öz istehsalı olan hazır məhsul qalığı 96,5 min manat olmuşdur.

Kənd təsərrüfatında yaz-tarla işləri başa çatmışdır. 2024-cü il iyul ayının 1-nə kimi 10669,7 hektar sahədə yazlıq bitkilər, o cümlədən 7125,7 hektarı sahədə dənli və dənli paxlalı bitkilər (ondan 6942,7 hektarı dən üçün qarğıdalı), 640,0 hektar sahədə kartof, 1676,0 hektar sahədə tərəvəz, 346,0 hektar sahədə bostan bitkiləri, 82,0 hektar sahədə tütün və 800,0 hektar sahədə isə çoxillik otlar əkilmişdir.

2024-cü il iyul ayının 1-nə kimi tarlalardan 3246,0 ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 36,3 faiz az dənli və dənli paxlalı bitkilər, 4446,0 ton (4,4 faiz çox) kartof, 17169,5 ton (12,7 faiz az) tərəvəz, 1969,0 ton (17,3 faiz çox) bostan məhsulları, 2751,5 ton (1,8 faiz az) meyvə və giləmeyvə və 37,8 ton (2,1 dəfə çox) tütün yığılmışdır.

2023-cü ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında diri çəkidə ət istehsalı 0,9 faiz artaraq 2209,8 ton, süd istehsalı 0,2 faiz artaraq 11661,0 ton, yumurta istehsalı 0,7 faiz artaraq 5388 min ədəd və yun istehsalı 1,2 faiz artaraq 41,5 ton olmuşdur.

2024-cü il iyul ayının 1-i vəziyyətinə 36801 baş qoyun və keçi, 27259 baş iribuynuzlu mal-qara, o cümlədən 13195 baş inək və camış mövcud olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 1903,0 min manat məbləğində olmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ilin yanvar-iyun ayları ərzində 340,0 min ton yük və 3752,0 min nəfər sərnişin daşınmış, 2023-cü ilin müvafiq dövrünə nisbətən yük daşınması 5,3 faiz, sərnişin daşınması isə 7,2 faiz artmışdır. Yük və sərnişinlərin hamısı avtomobil nəqliyyatı ilə daşınmışdır.

2024-cü ilin yanvar-iyun aylarında informasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artaraq 1327,8 min manat olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 148074,3 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 32601,4 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 0,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 6,2 faiz artmış, ticarət şəbəkəsində 98103,8 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 49970,5 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2024-cü ilin yanvar-may aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 561,7 manat təşkil etmişdir.

01 iyul 2024-cü il tarixinə rayonun əhalisi ilkin hesablamalara görə 100788 nəfər olmuş, əhalinin sayı ilin əvvəlindən 99 nəfər və ya 0,1 faiz artmışdır.

***Əsəbəli Alqayev,***
***Balakən Rayon Statistika İdarəsinin rəis müavini***

# Şəhid Ayxan qəlblərdə yaşayır



***İkinci Qarabağ müharibəsində doğma Vətəninin harayına səs verib uğrunda son damla qanına qədər mərdliklə savaşıb şəhidlik zirvəsinə ucalananda Ayxan Fariz oğlu Qurbanzadə 22 yaşında idi.***

Ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə düşən oğlunu xalq qəlbində yaşatmaqla onu özünə qürur mənbəyi bilir. Müqəddəslik şəhidlik zirvəsində bizlərə tərəf boylanan, hər cür sevgiyə, məhəbbətə layiq olan Ayxan Qurbanzadə dövlət tərəfindən isə "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Şuşanın azadlığına görə medallarla təltif olunub.

Vətənpərvərliyin ən ali məqamına yetişən Ayxan Qurbanzadə 1998-ci ildə Lənkəran rayonunun Şağlakücə kəndində anadan olub. Atası Fariz Qurbanov Birinci Qarabağ müharibəsi qazisi və 2-ci qrup əlilidir. Vətənə, torpağa bağlılıq bu ailənin canında, qanındadır. Ayxan hələ uşaqlıqdan ürəyində mənfur düşmənlərə nifrət bəsləyib. Odur ki, orduya yola düşəndə birinci amalı yağıdan qisas almaq olub. Cəbhə bölgəsində əlində silah, ürəyində Vətən məhəbbəti oğulluq borcunu ləyaqətlə yerinə yetirib. Xidmət zamanı fəallığı və nizam-intizamı ilə seçilib.

Ayxan hərbi xidmətini başa vurduqdan sonra bir müddət müxtəlif işlərdə çalışıb. 2016-2017-ci illərdə Vətən, torpaq naminə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətə başlayıb . 2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimov şəhadətə qovuşduqdan sonra elan edilən səfərbərliyə Ayxan Qurbanzadə də qoşulub, 21 sentyabr 2020-ci ildə hərbi təlim toplantılarına gedib.

İkinci Qarabağ müharibəsində atıcı olaraq odlu-alovlu səngərlərdə birincilər sırasında yerini alıb. Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə, sözün əsl mənasında yağıya qan qusdurub. Qəhrəman Vətən sevdalısı 25 oktyabr 2020-ci ildə Füzuli -Hadrut istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olub.

Lənkəran camaatı öz qəhrəman oğlunu bir an belə unutmur, adını böyük iftixarla çəkir, örnək olaraq şərəfli həyat yolunu nümunə göstər. Xatirəsinə ehtiram olaraq onun ad gününü məzarının önünə gül dəstələri qoymaqla qeyd ediblər. Həm də bildirilib ki, Ayxan Vətən yolunda canından keçib. Qərinələr ötsə, nəsillər bir-birini əvəz etsə belə o, heç vaxt unudulmaz, daim qəlblərdə yaşayacaq.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Ucarda tikinti, nəqliyyat və rabitənin inkişafı

***2024-cü ilin yanvar-iyun aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 2156,2 min manatlıq xidmət göstərilmiş və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz çox olub.***

Avtomobil nəqliyyatı ilə 2024-cü ilin yanvar-iyun aylarında 2905,0 min nəfər sərnişin, 695 min ton yük daşınmışdır. 2024-cü ilin yanvar-iyun aylarında informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 413,5 min manatlıq xidmət göstərilmiş, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 15,8 faiz və ya 58,0 min manat çox olmuşdur.

**Tikinti**

2024-cü ilin yanvar-iyun aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 377,0 min manat investisiya yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş investisiyanın 232,4 min manatı və ya 61,6 faizi dövlət, 144,6 min manatı və ya 38,4 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

2024-cü ilin yanvar-iyun aylarında əsas kapitala yönəldilmiş investisiyanın 367,5 min manatının və ya 97,5 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir.

***Cəlil Vəliməmmədov,***
***Ucar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi***

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:48 PM Page 15



## Rusiya səfirliyinin əməkdaşı "arzuolunmaz şəxs" elan edildi

***Moldova Xarici İşlər Nazirliyi Rusiyanın Kişinyovdakı səfirliyinin əməkdaşlarından birin***

"Unikal" xəbər verir ki, bu barədə Moldova XİN məlumat yayıb.

"Moldova Xarici İşlər Nazirliyi Rusiya səfirliyinin bir əməkdaşını persona non qrata elan edib", - məlumatda deyilir.

Bundan əvvəl Rusiyanın Moldovadakı səfiri Oleq Vasnetsovun "casusluq işi" ilə bağlı Moldova Xarici İşlər Nazirliyinə çağırıldığı qeyd olunub.

***Gülayə Mecid***

## "Türkiyə regionda sülhün təminatçısıdır" - Ərdoğan

***"Türkiyə regionda sülhün təminatçısıdır. Bölgəmizi qan gölünə çevirmək istəyənlər var".***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Anıtkabir"imeqbərəsini ziyarəti zamanı deyib.

O, bildirib ki, dünyada qeyri-sabitliklər günü-gündən artır.

***Gülayə Mecid***

## Moldovada məmurlar dövlətə xəyanət ittihamı ilə saxlanıldı

***Moldovanın Cinayətkarlığa və Xüsusilə Mühüm İşlərə Qarşı Mübarizə üzrə Prokurorluğu (PCCOCS) ölkə parlamentində axtarışlar aparıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, aparılan axtarışlar zamanı iki nəfər dövlətə xəyanət ittihamı ilə saxlanılıb.

Onlardan biri Moldovanın maraqlarına zərər vuran məlumatları səfirlik əməkdaşına ötürüb. Digər məmur isə Moldovaya qarşı və şəxsi maraqları üçün hərəkətlərdə şübhəli bilinir.

Hər iki məmur 72 saat müddətinə həbs edilib.

## Türkiyə-Ermənistan sərhədi bu halda açıla bilər

***"Azərbaycanla Ermənistan arasında danışıqlar prosesi davam edir. Münasibətlərin normallaşacağı təqdirdə bizim də ssenarimizi hazırlamağımız lazım olacaq".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan "Sabah" qəzetinə müsahibəsində deyib.

Onun sözlərinə görə, hazırkı fəaliyyətlər də bu istiqamətdədir.

"Əgər işlər tamamlanarsa, müsbət ssenarini aktivləşdirəcəyik. Beləliklə, biz sərhəd qapımızı aça bilərik".

***Gülayə Mecid***

## HƏMAS-ın hərbi qanadının lideri öldürüldü

***HƏMAS-ın hərbi qanadının lideri Məhəmməd Deif iyulun 13-də Xan Yunis şəhərinə hava hücumu zamanı öldürülüb.***

"Unikal" Türkiyə KİV-ə istinadən bildirir ki, bu barədə İsrail ordusu məlumat yayıb.

Xatırladaq ki, Deif İsrailin hücumları zamanı da bir gözünü itirmişdi.

***Fidan Nuriyeva***

## ABŞ müdafiə naziri israilli həmkarı ilə bunu müzakirə etdi

***ABŞ müdafiə naziri Lloyd Ostin və İsrailin müdafiə naziri Yoav Gallant arasında telefon görüşü olub.***

"Unikal" xəbər verir ki, görüş zamanı ABŞ İsrailin təhdid altında olduğunu və özünü müdafiə etmək hüququna malik olduğunu bildirib.

İkili, həmçinin, İranın dəstəklədiyi bir sıra terrorçu qrupların, o cümlədən Livan Hizbullahının İsrailə qarşı təhdidlərini müzakirə ediblər.

***Zərifə Nağıyeva***

## Zelenski Ukrayna torpaqlarını Qərbə satıb?

***Ukrayna lideri Voodimir Zelenski ölkəsinin torpaqlarını Qərb korporasiyalarına satıb.***



"Unikal" xəbər verir ki, bu barədə Avropa Parlamentinin İrlandiyadan olan üzvü Mik Uolles "X" da yazıb. "Siz Ukrayna torpaqlarının Qərb korporasiyalarına satılmasına töhfə vermisiniz", - o, vurğulayıb.

Avropa Parlamentinin deputatı əlavə edib ki, Ukrayna liderinin hərəkətləri Ukraynanı dağıntı və fəlakətə sürükləyib.

Xatırladaq ki, ötən il Amerika kəşfiyyatçısı Skott Ritter Zelenskini ABŞ-yə Ukraynanın mühüm resursunu satmaqda ittiham etmişdi. Ritterin sözlərinə görə, Ukraynanın qara torpağı indi BlackRock-un yurisdiksiyasındadır.

Keçmiş kəşfiyyatçının fikrincə, hər bir ukraynalı "Rusiyanın qələbəsi üçün dua etməlidir", çünki bu, Ukraynanın suveren dövlət kimi həqiqətən sağ qala biləcəyi yeganə yoldur.

***Gülayə Mecid***

## Türkiyədə FETÖ əməliyyatı - 55 nəfər saxlanıldı

***Türkiyənin 21 vilayətində FETÖ-yə qarşı son 4 gündür davam edən "Kıskaç-24" əməliyyatlarında 55 şübhəli saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə daxili işlər naziri Ali Yerlikaya sosial şəbəkə hesabında paylaşım edib.

Bildirilib ki, Adana, Ankara, Balıkəsir, Bursa, Çorum, Ədirnə, Elazığ, Qaziantep, Isparta, İstanbul, İzmir, Karabük, Kütahya, Ordu, Manisa, Mersin, Rizə, Samsun, Siirt, Tekirdağ və Yalovada FETÖ-yə qarşı təşkil edilən "Kıskaç-24" əməliyyatlarında şübhəli bilinən şəxslər saxlanılıb.

***Zərifə Nağıyeva***




## Polşa Belarusla sərhəddə hərbi əməliyyata başlayıb

***Polşa Belarusla şərq sərhədində "Hava Şəfəqi" kod adlı hava hücumundan müdafiəni gücləndirmək üçün əməliyyata başlayır.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, əməliyyatın əsas məqsədi ölkənin hava məkanını onun sərhədlərini qanunsuz pozan obyektlərdən qorumaqdır. Dronlar üçün xarakterik olan "alçaq və çox aşağı hündürlüklər də daxil olmaqla qeyri-qanuni sərhəd pozuntularına yol verən obyektlərə" xüsusi diqqət yetiriləcəyi dəqiqləşdirilir. Əməliyyat Polşa ərazilərinin pozulma riskinin daha yüksək olduğu şərq və şimal-şərq sərhədlərini əhatə etməlidir. "Hava şəfəqi" əməliyyatının koordinasiyasına ölkənin Silahlı Qüvvələrinin operativ komandanlığı cavabdeh olacaq.

***Gülayə Mecid***

## Haniyənin evindən reportaj hazırlayan jurnalist öldürüldü

***Israil ordusu Qəzza zolağına hücumu zamanı "Al Jazeera" telekanalının müxbiri İsmayıl əl-Gül və operator Rami ər-Rifi həyatlarını itiriblər.***

"Unikal" xəbər verir ki, fələstinli jurnalist İsmayıl əl-Gülün sonuncu hazırladığı reportaj gündəm mövzusu olub. O, Tehranda öldürülən HƏMAS lideri Ismayıl Haniyənin Qəzzadakı evinin dağıntılarından material hazırlayıbmış. Jurnalist və operatorun hadisədən bir gün sonra öldürülməsi diqqət çəkib.

Bu hücumla da Qəzza zolağında İsrail tərəfindən öldürülən jurnalistlərin sayı 165-ə yüksəlib.

***Gülayə Mecid***



## ABŞ-nin bu ştatında ölüm hökmü qanuni oldu



***ABŞ-nin Cənubi Karolina ştatının Ali Məhkəməsi ştatda güllələnmə, öldürücü inyeksiya və elektrik stulu üsulları ilə ölüm cəzasının tətbiqinin qanuni olduğuna qərar verib.***

"Unikal" xəbər verir ki, Cənubi Karolina Ali Məhkəməsi məhbusların 2011-ci ildə açdıqları iddianı ştatda "qəddar" edam praktikasının Konstitusiya ilə qadağan olunduğu əsası ilə qiymətləndirib.

Qərarda qeyd olunub ki, edama məhkum edilən məhbusun ona veriləcək cəzada bu 3 üsuldan birini seçə bilər.

***Zərifə Nağıyeva***

26_27 IYUl-QARA.qxd 8/1/2024 9:48 PM Page 16



# Hidayət Heydərov reytinq cədvəlində 1-ci yerə yüksəldi

***Gənclər və İdman Nazirliyi olimpiya idman növləri üzrə milli komandaların idmançılarının 2024-cü il iyul ayına olan reytinq cədvəlini açıqlayıb.***



Nazirliyin mətbuat xidmətindən "Unikal"a bildiriblər ki, siyahıya 600 xalla cüdoçu Hidayət Heydərov liderlik edir. Bədii gimnastikası üzrə qrup hərəkətləri komandası 510 xalla ikinci, 430 xal toplayan idman gimnastı Nikita Simonov isə üçüncü pillədə qərarlaşıb.

Qeyd edək ki, reytinq xallarının hesablanması Gənclər və İdman Nazirliyinin müəyyən etdiyi qaydalara əsasən aparılır. Növlər üzrə beynəlxalq yarışlar öz reytinqinə əsasən 5 kateqoriyaya bölünür və həmin yarışlarda tutulan yerlərə uyğun olaraq xallar hesablanır.

# Şəhriyar Məmmədyarov 2 pillə irəlilədi

***Beynəlxalq Şahmat Federasiyası (FIDE) avqust ayı üçün reytinq cədvəlini açıqlayıb.***

"Unikal" qurumun saytına istinadən xəbər verir ki, Azərbaycan təmsilçilərindən Şəhriyar Məmmədyarov (2733 xal) 2 pillə irəliləyərək 17-ci yerdə yüksəlib.

Teymur Rəcəbov (2700) 33-cü sıradadır. Rauf Məmmədov isə "100-lük"dən kənarda qalıb.



Siyahıya norveçli Maqnus Karlsen (2832) başçılıq edir. Hikaru Nakamura (ABŞ, 2802) 2-ci, Fabiano Karuana (ABŞ, 2793) 3-cüdür.

Qadın təmsilçilərimizdən Günay Məmmədzadə (2441) 2 pillə irəliləyərək 31-ci yerdə qərarlaşıb. 1 sıra geriləyən Gövhər Beydullayeva (2412) 43-cü, 13 pillə geriləyən Xanım Balacayeva (2384) 60-cı, 21 pillə geriləyən Ülviyyə Fətəliyeva (2369) isə 72-cidir.

Siyahıya çinli Yifan Hou (2633) başçılıq edir. Venjun Ju 2-ci (Çin, 2563), üçüncü sırada Ley Tinqjie (Çin, 2549) 3-cüdür.

# Azərbaycan UEFA reytinqində geriləyib

***"Sumqayıt"ın Konfrans Liqasının II təsnifat mərhələsində Macarıstanın "Fehervar" komandası ilə heç-heçə etməsi Azərbaycanın UEFA reytinqindəki xallarını artırıb.***

"Unikal" xəbər verir ki, 0:0 hesabıyla başa çatan oyun sayəsində ölkənin aktivinə 0,125 xal yazılıb. Azərbaycan hazırda 18,125 xalla 25-ci sıranı tutub. Komanda ötən günlə nisbətdə bir pillə geriləyib.

Aktivində eyni xalı olan Slovakiya 4 təmsilçisinin də mübarizəni dayandırmaması səbəbindən 24-cü pillədə göstərilib.

Reytinqə 89,160 xalla İngiltərə başçılıq edir.




# Kriştiano Ronaldo gizlicə evlənib?

***Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun portuqaliyalı hücumçusu Kriştiano Ronaldo sevgilisi Corcina Rodrigezlə ailə qurub.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, idmançı məşq haqda verdiyi müsahibəsi zamanı bu barədə təsadüfən danışıb. Ronaldo təsirli şəkildə Corcinanı həyat yoldaşı adlandırıb.

Onun bu müsahibəsindən sonra cütlüyün gizlicə evləndikləri haqda şərhlər yazılıb.

Qeyd edək ki, Ronaldonun beş övladı var. Onlardan yalnız ikisi Corcinadandır: 6 yaşlı Alana Martina və qardaşını itirən 2 yaşlı Bella Esmeralda. Ronaldonun ən böyük varisi 13 yaşlı Kriştianu Jr.-dır. Futbolçu onun anasının kimliyini gizlədir. Əkizlər Mateo və Eva surroqat anadan dünyaya gəliblər.

# Əliyar Ağayev növbəti təyinat aldı

***FIFA referisi Əliyar Ağayev növbəti təyinat alıb.***

"Unikal" AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, o, Litvada yerli "Panevejis" və İsrailin "Makkabi" (Təl-Əviv) komandaları arasında keçiriləcək UEFA Avropa Liqasının III təsnifat mərhələsinin ilk oyununu idarə edəcək.

Ona Zeynal Zeynalov və Akif Əmirəli köməklik göstərəcəklər. Dördüncü hakim funksiyasını Kamal Umudlu yerinə yetirəcək. Elçin Məsiyev isə matça AVAR kimi təyinat alıb. Qeyd edək ki, avqustun 8-də Panevejis şəhərində yerləşən "Aukştaytiya" stadionunda keçiriləcək görüş Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

# Azərbaycan basketbol millisi ABŞ-ni məğlub etdi - "Paris-2024"

***Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisi "Paris-2024" Yay Olimpiya Oyunlarında ikinci oyununa çıxıb.***



"Unikal" xəbər verir ki, yığma bu dəfə ABŞ seçməsi ilə üz-üzə gəlib. Gərgin və maraqlı keçən görüş komandamızın 20:17 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, komandamız ilk matçında İspaniyaya 20:17 hesabı ilə məğlub olub.

# "Qarabağ"ın ÇL-də rəqibi bəlli oldu

***"Qarabağ"ın Çempionlar Liqasının 3-cü təsnifat mərhələsindəki rəqibinin adına aydınlıq gəlib.***

"Unikal" xəbər verir ki, bu, "Ludoqorets" olub. Bolqarıstan təmsilçisi 2-ci mərhələnin cavab görüşündə Minsk "Dinamo"suna 0:1 hesabı ilə uduzsa da, ilk oyunda 2:0 hesablı qələbə qazandığı üçün mərhələ adlayıb.

"Qarabağ"la "Ludoqorets" arasında ilk görüş avqustun 6-da Bakıda keçiriləcək. Cavab qarşılaşması isə avqustun 13-də Bolqarıstanda olacaq.

Qeyd edək ki, "Qarabağ" 2-ci mərhələdə Cəbəllütariq "Linkoln"unu mübarizədən kənarlaşdırıb - 2:0, 5:0.

# Azərbaycan cüdoçusu 1/4 finala çıxdı



***Azərbaycan cüdoçusu Zelim Kotsoyev "Paris-2024" Yay Olimpiya Oyunlarında mübarizəyə başlayıb.***

"Unikal" xəbər verir ki, 100 kiloqram çəki dərəcəsində çıxış edən son dünya çempionu 1/8 finalda polşalı Pyotr Kuçera ilə qarşılaşıb. Rəqibinə ipponla qalib gələn Z.Kotsoyev 1/4 finala yüksəlib.

Qeyd edək ki, Paris olimpiadasında Azərbaycanın aktivində hələlik bir qızıl medal var. Cüdoçu Hidayət Heydərov (73 kiloqram) Olimpiya çempionu olub.

# "Neftçi"yə mətbuat katibi təyin edildi

***"Neftçi" Peşəkar Futbol Klubunun mətbuat katibi vəzifəsinə yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, bu vəzifəni Asəf Zeynallı icra edəcək.

Qeyd edək ki, Asəf Zeynallı daha əvvəl "Qəbələ" İdman Klubunda Media və Marketinq Departamentinin rəhbəri olub.

# Mahirin alman klubuna gözlənilən transferi ilə bağlı yeni xəbər

***Azərbaycan milli komandasının hücumçusu Mahir Emreli tezliklə Zaqrebin "Dinamo" klubu ilə müqaviləni ləğv edə bilər.***



QOL.az xəbər verir ki, bu barədə Almaniyanın "Bild" nəşri məlumat yayıb.

Qəzetin yazdığına görə, ikinci bundesliqa təmsilçisi, baş məşqçisi Miroslav Kloze olan "Nürnberq" Emrelini heyətində görmək istəyir. Elə futbolçu özü də karyerasını bu klubda davam etdirmək fikrindədir. Bildirilir ki, "Dinamo" ən yüksəködənişli futbolçularından M.Emreli ilə bu həftə müqaviləni qarşılıqlı razılaşma ilə ləğv edə bilər.

Qəzet yazır ki, məhz bundan sonra 27 yaşlı futbolçunun "Nürnberq"ə keçidi asanlaşacaq.